QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 143 (5615) 1 **avqsut** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# Xalqın rifahı Prezidentin prioritet siyasətidir

***__İlham Əliyev:__ “Qısa müddətdə həm ölkə iqtisadiyyatı, həm iş adamları xeyir götürəcəklər”***

Səh 2



Əli Həsənova “Əməkdar dövlət qulluqçusu” fəxri adı verilib



3

Tanınmış müğənni və bəstəkar Emin Ağalarova “Azərbaycan Respublikasının Xalq artisti” fəxri adının vəsiqəsi və döş nişanı təqdim olunub



3

“Dilimiz, mənəvi dəyərlərimiz daim dövlətin diqqət mərkəzindədir”



4

Görkəmli bəstəkar, Xalq artisti Xəyyam Mirzəzadə son mənzilə yola salınıb



4

Vüqar Rəhimzadə: “Qiymət tənzimlənməsi xidmətin səviyyəsinin daha da yüksəlməsinə müsbət təsir göstərəcək”



3

Bakı metrosu MDB məkanında ən ucuz qiymətə sərnişindaşıma həyata keçirir



3

5

İctimai nəqliyyat sektorunda vətəndaşlar daha keyfiyyətli xidmətlə təmin olunacaqlar



8

Havadarın itirilməsi: rəsmi İrəvanın yeni qorxulu röyası



16

Yerri Mina “Barselona”nı “Mançester Yunayted”ə dəyişir



# Xalqın rifahı Prezidentin prioritet siyasətidir

*İlham Əliyev: “Qısa müddətdə həm ölkə iqtisadiyyatı, həm iş adamları xeyir götürəcəklər”*



***Hər bir ölkənin sosial-iqtisadi inkişafının qiymətləndirilməsində nəzərə alınmalı olan faktorlardan biri də əhalinin sosial rifahı amilidir. Ümumiyyətlə, ölkəmizdə bütün sahələrdə, o cümlədən, sosial sahədə uğurlu dövlət siyasəti həyata keçirilir. Bu işin məntiqi nəticəsi olaraq reallaşdırılan siyasət və aparılan islahatlar öz müsbət nəticələrini göstərir. Dövlətin sosial siyasəti nəticəsində əhalinin rifahı, güzəranı xeyli yüksəlib və yoxsulluğun ümumi səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Sosial siyasət dövlət tərəfindən müvafiq qanun və dövlət proqramları ilə tənzimlənir və icra olunur.***

Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyət göstərdiyi müddətdə sosial-iqtisadi sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə ölkəmizin daha da qüdrətlənməsinin, dinamik inkişafının əsas leytmotivini təşkil etməkdədir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Bu isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan dövlət başçısı İlham Əliyevin hər bir addımda vətəndaşların mənafeyini əsas götürür.

## Prezidentin son qərarları əhalinin sosial rifahının güclənməsinə hesablanıb

Belə ki, Azərbaycan Respublikası Prezidentinin “Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında” imzaladığı Fərmanına əsasən, ölkəmizdə “güzəştli mənzil” sisteminin yaradılması bir daha dövlət başçısının xalqına olan diqqət və qayğısının bariz nümunəsi olmaqla yanaşı, həm də bu Fərman mənzil probleminin həllində yeni bir mərhələ kimi qiymətləndirilir.

İqtisadçı-alim Vüqar Bayramlının dediyinə görə sosial evlərin yaradılması çox vacibdir və ölkə başçısının bununla bağlı səsləndirdiyi fikirlər təqdirəlayiqdir: “Bu, ölkəmizdə mənzil təminatının genişləndirilməsi baxımından, olduqca vacibdir. Sosial evlər vətəndaşlara az vəsait ödəməklə mənzil əldə etməyə imkan yaradacaq. Ölkə Prezidenti sosial evlərin yaradılması ilə bağlı siyasi iradə nümayiş etdirdi. Bu, həm dövlət, həm də vətəndaşlar üçün vacibdir”.

Bu illər ərzində Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı, Azərbaycanın siması yenilәşir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda insanların düşüncələri dəyişib. Onu da vurğulamaq lazımdır ki, bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə daha inamla yanaşır, ölkəsinə daha dərindən bağlılığı ilə seçilir.

Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salaq: “Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm və söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ulu Öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm.”

Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, son 15 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına və müasir müəssisələrin açılmasına səbəb olub.

***RƏFİQƏ KAMALQIZI***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev dövlət qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev İrina Viner-Usmanovanın “Dostluq” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında idman sahəsində əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə İrina Aleksandrovna Viner-Usmanova “Dostluq” ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev Əsgər Rəsulovun Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Əsgər Adil oğlu Rəsulov Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəisi təyin edilsin.

## Xəyyam Hadi oğlu Mirzəzadə



**Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Görkəmli bəstəkar, Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, professor Xəyyam Hadi oğlu Mirzəzadə 2018-ci il iyulun 30-da ömrünün 83-cü ilində vəfat etmişdir.**

Xəyyam Mirzəzadə 1935-ci il oktyabr ayının 5-də Bakı şəhərində anadan olmuşdur. O, 1952-ci ildə Azərbaycan Dövlət Konservatoriyası nəzdində 10 illik musiqi məktəbini bitirdikdən sonra həmin il Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, 1957-ci ildə ali təhsilini dahi bəstəkar Qara Qarayevin sinfində bəstəkarlıq ixtisası üzrə başa vurmuşdur.

Əmək fəaliyyətinə 1957-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında müəllim kimi başlayan Xəyyam Mirzəzadə burada baş müəllim, dosent və professor vəzifələrində çalışmış, 1971-1983-cü illərdə isə bəstəkarlıq kafedrasının müdiri olmuşdur. O, 1983-cü ildən 2005-ci ilədək həmin təhsil müəssisəsinin professoru olaraq gənc musiqiçilər nəslinin yetişdirilməsində və yüksək ixtisaslı peşəkar musiqiçi kadrların hazırlanmasında xüsusi xidmətlər göstərmişdir.

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi Xəyyam Mirzəzadə musiqi mədəniyyətimizin inkişafında əhəmiyyətli rol oynamış sənətkarlardandır. Onun milli musiqi ilə müasir bəstəkarlıq texnikasının üzvi əlaqəsinə əsaslanan və özünəməxsusluğu, ifadəliliyi, dinamizmi ilə səciyyələnən geniş diapazonlu yaradıcılığı Azərbaycanın zəngin musiqi sənəti salnaməsinin parlaq səhifələrindən birini təşkil edir.

Qara Qarayev məktəbinin istedadlı yetirməsi və davamçılarından olan Xəyyam Mirzəzadə dünya musiqi irsinin nailiyyətlərindən uğurla bəhrələnərək müxtəlif janrlarda qiymətli əsərlər meydana gətirmişdir. Ayrı-ayrı illərdə bəstələdiyi instrumental, vokal, simfonik, xor və kamera əsərləri sənətkara şöhrət qazandırmışdır. Azərbaycan kinematoqrafiyasının qızıl fondunu təşkil edən bir sıra filmlərə, eləcə də çox sayda dram tamaşalarına onun yazdığı musiqilər öz ifadə vasitələrinin rəngarəngliyi və məzmun dolğunluğu ilə dinləyicilərin zövqünün formalaşdırılmasına xidmət etmiş, musiqi mədəniyyətimizin təqdirəlayiq nümunələri olaraq yüksək dəyərləndirilmişdir. Ölkənin musiqi ictimaiyyəti Xəyyam Mirzəzadəni eyni zamanda gözəl nəğmələrin müəllifi kimi tanıyırdı. Onun bəstələdiyi mahnılar uzun illər Azərbaycanın görkəmli ifaçılarının repertuarını zənginləşdirmişdir.

Xəyyam Mirzəzadənin respublikamızın hüdudlarından uzaqlarda və dünyanın mötəbər salonlarında, böyük orkestrlərdə və musiqi festivallarında müvəffəqiyyətlə səslənən əsərləri Azərbaycan musiqisinin təbliği işinə mühüm töhfə olmuşdur.

Bəstəkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliği sahəsindəki uzunmüddətli səmərəli fəaliyyəti lazımınca qiymətləndirilmişdir. O, bir çox fəxri adlara layiq görülmüş, Azərbaycan Respublikasının ali mükafatlarından olan “Şöhrət” və “Şərəf” ordenləri və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif olunmuşdur.

Görkəmli bəstəkar, mahir pedaqoq və səmimi insan Xəyyam Hadi oğlu Mirzəzadənin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

İlham Əliyev
Mehriban Əliyeva
Novruz Məmmədov
Oqtay Əsədov
Ramiz Mehdiyev
Əli Əhmədov
Fərəh Əliyeva
Əbülfəs Qarayev
Ceyhun Bayramov
Firəngiz Əlizadə
Fərhad Bədəlbəyli
Arif Məlikov
Fidan Qasımova
Tofiq Bakıxanov
Rauf Abdullayev

# Əli Həsənova “Əməkdar dövlət qulluqçusu” fəxri adı verilib



Prezident İlham Əliyev dövlət qulluqçularına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Həsənov Əli Məhəmmədəli oğluna “Əməkdar dövlət qulluqçusu” fəxri adı verilib.

# Tanınmış müğənni və bəstəkar Emin Ağalarova “Azərbaycan Respublikasının Xalq artisti” fəxri adının vəsiqəsi və döş nişanı təqdim olunub



İyulun 31-də Mədəniyyət Nazirliyində tanınmış bəstəkar və müğənni, “Jara” Beynəlxalq Musiqi Festivalının təşkilatçılarından biri Emin Ağalarova “Azərbaycan Respublikasının Xalq artisti” fəxri adının vəsiqəsi və döş nişanı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Əbülfəs



Qarayev Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Emin Ağalarovun “Xalq artisti” fəxri adı ilə təltif edildiyini xatırladıb. Nazir deyib ki, Emin Ağalarov Azərbaycanın mədəniyyətini təkcə postsovet məkanında deyil, bütün dünyada uğurla təmsil edir. Onun ölkəmiz üçün həyata keçirdiyi layihələr təqdirəlayiqdir. “Jara” Beynəlxalq Musiqi Festivalının təşkilatçılığında Eminin gördüyü işlər göz qabağındadır. Dövlətimizin başçısı tərəfindən təltif olunması onun yaradıcılıq fəaliyyətinə verilən yüksək qiymətdir.

“Jara” Beynəlxalq Musiqi Festivalı ilə bağlı fikirlərini bölüşən nazir qeyd edib ki, artıq üçüncü ildir Azərbaycanın Mədəniyyət Nazirliyi festivalın təşkilində yaxından iştirak edir: “Biz bu böyük musiqi layihəsində birgə əməkdaşlıqdan məmnunluq duyuruq. Azərbaycan mədəniyyətinin təbliği baxımdan “Jara” festivalı böyük əhəmiyyət kəsb edir”.

Əbülfəs Qarayev Emin Ağalarovu təbrik edərək ona gələcək fəaliyyətində uğurlar arzulayıb və “Xalq artisti” fəxri adının vəsiqəsini və döş nişanını tanınmış müğənni və bəstəkara təqdim edib. Emin Ağalarov Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın ən yüksək fəxri adına layiq görülməsindən şərəf duyduğunu bildirib: “Hər bir ifaçı üçün bu fəxri ad həm məsuliyyət, həm də şərəfdir. Bu fəxri ad Azərbaycanın təbliği istiqamətində fəaliyyətimi əsirgəməyəcəyimə və bu adı şərəflə daşıyacağıma bir işarədir”.

“Jara” barədə danışan Emin Ağalarov bildirib ki, builki festivalın proqramı çox geniş oldu. Bir çox tanınmış artistlər özləri bu festivala qatılmaq üçün müraciət edirdilər. “Jara-2018” çərçivəsində Heydər Əliyev Mərkəzinin parkında Rusiyanın MuzTv kanalının təşkilatçılığı ilə Bakı sakinləri və şəhərin qonaqları üçün pulsuz konsert keçirildi. Bu konsert MuzTv-də canlı yayımlandı. Builki festival çərçivəsində dörd gün ərzində 250-dən çox artist çıxış etdi. Gün ərzində 75 ifaçı səhnəyə çıxdı. Çətin olsa da, bu işin öhdəsindən məharətlə gələ bildik. Düşünürəm ki, həm tamaşaçılar, həm də artistlər çox razı qaldılar. Biz gələcəkdə fəaliyyətimizi daha da genişləndirəcəyik. Moskvaya qayıdan kimi artıq növbəti “Jara”nın hazırlıqlarına başlayacağıq. “Jara-2019” daha maraqlı və rəngarəng olacaq.

# Azərbaycanın nümunəvi dünyəvilik modeli mövcuddur

*Dövlət Komitəsinin sədri Qırğızıstan Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili ilə görüşüb*



Dünən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Qırğızıstan Respublikasının Azərbaycandakı müvəqqəti işlər vəkili Bakıt Yusupov ilə görüşüb. Görüşdə Dövlət Komitəsinin sədri iki ölkə arasında münasibətlərin tarixi köklərə və ortaq dəyərlərə əsaslandığını bildirib. Mübariz Qurbanlı Azərbaycanda mövcud olan dövlət-din münasibətlərindən, multikultural mühitdən, digər dinlərin nümayəndələrinə qarşı tolerant münasibətdən, milli-mənəvi dəyərlərimizə göstərilən diqqət və qayğıdan, eləcə də, mədəniyyətlərarası dialoqun daha da inkişaf etdirilməsi məqsədi ilə görülən işlərdən ətraflı söz açıb. Söhbət zamanı günümüzdə dindən sui-istifadə hallarının artdığını deyən Dövlət Komitəsinin sədri radikal ünsürlərə qarşı birgə mübarizə və təcrübə mübadiləsinin zəruriliyini nəzərə çatdırıb.

Bakıt Yusupov Azərbaycanın nümunəvi dünyəvilik modelinin bir çox ölkələr üçün örnək olduğunu bildirib. Ölkəsinin bütün beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini qeyd edən diplomat ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi, islam dünyasının mədəni-mənəvi vəhdətinin qorunub saxlanılması və inkişaf etdirilməsi yolunda iki ölkənin səylərinin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən qonaq Dövlət Komitəsinin rəhbərliyini 15-16 noyabr tarixlərində Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçiriləcək “Müasir və dünyəvi ölkədə islam” adlı beynəlxalq konfransa dəvət edib.

# Vüqar Rəhimzadə: “Qiymət tənzimlənməsi xidmətin səviyyəsinin daha da yüksəlməsinə müsbət təsir göstərəcək”



“Ölkəmizin əldə etdiyi uğurlar bu gün beynəlxalq reytinq agentliklərinin hesabatlarında öz əksini tapır. “Standard & Poor's” reytinq agentliyinin hesabatında qeyd olunur ki, növbəti 3 ildə iqtisadiyyatımız 3 faiz artacaq. Rusiyanın Milli Araşdırma Universitetinin Sosial Siyasət Tədqiqatları İnstitutunun MDB ölkələri arasında əməkhaqqı reytinqi ilə bağlı açıqladığı rəqəmlər də ölkəmizin bu sahədəki müsbət göstəricilərindən xəbər verir. Belə ki, orta aylıq əməkhaqqı Azərbaycanda 306,7 dollar, Moldovada 308,4 dollar, Ukraynada 272,9 dollar təşkil edir. Təbii ki, bütün bunlarla yanaşı, ölkəmizdə həyata keçirilən islahatlar, görülən tədbirlər uğurlu iqtisadi siyasətin mühüm tərkib hissəsidir.” Bu fikirləri KİV-ə açıqlamasında YAP Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə onu da qeyd edib ki, Tarif Şurasının Azərbaycanda bir sıra nəqliyyat xidmətlərinin qiymətinin tənzimlənməsinə dair qəbul etdiyi qərar bu sahədə insanlara göstərilən xidmətin səviyyəsinin daha da yüksəldilməsinə öz müsbət təsirini göstərəcək: “Nəzərə almaq lazımdır ki, xarici ölkələrlə müqayisədə Azərbaycanda metro və ictimai nəqliyyatda gediş haqqının qiyməti çox aşağıdır. Son olaraq, 2007-ci ildə sərnişindaşımada, 2011-ci ildə isə metroda xidmətin tarifi təsdiq edilib. Ötən bu illər ərzində isə hər iki sahədə böyük yenidənqurma işləri aparılıb, xidmətin keyfiyyəti müasir standartlar səviyyəsinə qaldırılıb.”

“İki sahil” qəzetinin baş redaktoru metro və ictimai nəqliyyatda gediş haqqı ilə bağlı bəzi statistik rəqəmləri diqqətə çatdırıb: “Metro və sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusda 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,44-1,75 manat təşkil edir. Göründüyü kimi, yeni tarif dəyişikliyindən sonra da ölkəmizdəki tariflər əksər MDB ölkələri ilə müqayisədə az olacaq”.

# Bakı metrosu MDB məkanında ən ucuz qiymətə sərnişindaşıma həyata keçirir

***Bakı metrosu bütün hallarda MDB məkanında ən ucuz qiymətə sərnişindaşıma həyata keçirir. AZƏRTAC xəbər verir ki, bu barədə “Bakı Metropoliteni” QSC-nin mətbuat katibi Bəxtiyar Məmmədov deyib. O bildirib ki, avqustun 1-dən metroda sərnişindaşıma yeni tariflərlə həyata keçiriləcək.***

Belə ki, bir gedişin qiyməti Tarif Şurasının qərarı ilə 30 qəpik müəyyən olunub. B.Məmmədov qeyd edib ki, “Bakı Metropolitenində sonuncu dəfə tarif dəyişikliyi 2011-ci ilin dekabrın 1-də olub. Həmin il noyabr ayının 24-də Tarif Şurasının verdiyi qərara əsasən qiymətlər 15 qəpikdən 20 qəpiyə dəyişdirilib. Həmin dövrdən bu zamana qədər metroda heç bir tarif dəyişikliyi baş verməyib. Metropoliten maliyyə məsələlərində obyektiv və şəffaf mövqe tutur, hər il öz maliyyə hesabatlarını dərc elətdirir, müvafiq səlahiyyətli strukturlar qarşısında hesabatlar, məlumatlar verir.

“Metroda bir sərnişin daşınmasının istismar xərcləri 47 qəpiyə bərabərdir. Hətta son tarif dəyişikliyindən sonra da arada 17 qəpiklik fərq olacaq. Qeyd edim ki, 47 qəpiklik istismar xərcinə metro stansiyaların, tunellərin inşası, yeni qatarların alınması, təmiri, modernləşdirilməsi, mövcud stansiyaların infrastrukturunun yenidən qurulması daxil deyil”, - deyə B.Məmmədov vurğulayıb. Onun sözlərinə görə, hazırda metro ilə sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusda 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,44-1,75 manat təşkil edir. Kiyevdə də bu yaxınlarda metroda sərnişindaşımanın qiyməti qalxıb. Bu isə, bizim hazırkı valyuta kursu ilə 47-50 qəpik arasında dəyişir. Bir sözlə MDB məkanına baxsaq yenə ən ucuz tariflər Bakıdadır. Rusiyaya nəzər salsaq görərik ki, bu ölkə metro sahəsi ilə bağlı böyük potensiala



malikdir. Burada qatarların inşasından tutmuş metro ilə bağlı bir çox sahələr üzrə müəssisələr mövcuddur. Lakin buna baxmayaraq, Rusiyada da metroda gediş haqqı Bakıdakı qiymətlərdən daha yüksəkdir.

## Avropa Komissiyası TANAP layihəsinə 5 milyon avro məbləğində qrant ayırıb

Avropa Komissiyası Azərbaycan qazının Türkiyəyə və oradan Avropaya nəqlini nəzərdə tutan Trans-Anadolu (TANAP) boru kəməri layihəsinə 5 milyon avro məbləğində qrant ayırıb. AZƏRTAC xəbər verir ki, bu barədə TANAP məlumat yayıb. Bildirilib ki, qrant Avropa Komissiyasının enerji layihələrini dəstəkləyən CEF (Connecting Europe Facility) Enerji Proqramı çərçivəsində təmin edilib. Avropa İttifaqına üzv ölkələr bir sıra layihələrə 48,4 milyon avro dəyərində investisiya qoymağı qərara alıb. TANAP-da bu layihələr içərisində yer alan iki qaz layihəsindən biridir.

# “Dilimiz, mənəvi dəyərlərimiz daim dövlətin diqqət mərkəzindədir”

***Dünən Azərbaycan əlifbası və Azərbaycan dili günü münasibətilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nəzdində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə “Dilim varsa, mən varam” mövzusunda tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Mənəvi Dəyərlərin Təbliği Fondunun rəhbərliyi, AMEA-nın nümayəndələri, KİV-in rəhbər şəxsləri, jurnalistlər, eləcə də gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.***







Fondun icraçı direktoru Mehman İsmayılov mövzunun əhəmiyyətindən danışıb. Natiq vurğulayıb ki, tədbirin keçirilməsində məqsəd milli-mənəvi dəyərlərimizin əsas dayaqlarından biri olan dilimizin saflığının qorunması, qloballaşma nəticəsində dilimizin qarşılaşdığı problemlərin təhlili, müasir dünya dilləri arasında dilimizin yeri, inkişaf mərhələləri və bu kimi mövzuların müzakirəsini aparmaq, mütəxəssislərin məruzələrini dinləməkdir. O qeyd edib ki, Fond Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində tədbirlər həyata keçirir, həmçinin dilçi mütəxəssislərin məruzəsindən ibarət kitab nəşr etdirməyi nəzərdə tutur.

Daha sonra çıxış edən Mənəvi Dəyərlərin Təbliği Fondunun Himayəçilər Şurasının üzvü, SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirib, bütün sahələrdə olduğu kimi dilimizin inkişafında da müstəsna xidmətlər göstərib.

B.Quliyev Ümummilli Liderin 1 avqust - Azərbaycan əlifbası və Azərbaycan dili günü ilə bağlı imzaladığı sərəncamını bunun bariz nümunəsi adlandırıb: “Dil bütün dövrlərdə aktualdır, dilin yaşaması, gələcək nəsillərə olduğu kimi ötürülməsi istiqamətində görülən işlər daim aktualdır. Hər bir xalqın dili onun milli kimliyidir və biz dilimizin yaşaması üçün üzərimizə düşən vəzifəsini yerinə yetirməliyik. Azərbaycan dilinin tarixi Səfəvilər dövrünə gedib çıxır. Dilimiz, mənəvi dəyərlərimiz daim dövlətin diqqət mərkəzindədir. Dilimizin müxtəlif dövrlərdə dövlət dili olması istiqamətində mübarizə aparılıb və nəhayət Ulu Öndər Heydər Əliyevin gərgin əməyi sayəsində Sovet hakimiyyəti dövründə buna nail olundu və Azərbaycan dili dövlət dili kimi Konstitusiyamızda təsbit edildi. Prezident İlham Əliyev dilin qorunması və inkişafı ilə bağlı dövlət proqramlarını təsdiq edib. Mənəvi Dəyərlərin Təbliği Fondu dilimizin qorunması və inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirəcək”.

SƏS Media Qrupunun rəhbəri bildirib ki, bu gün sosial şəbəkələrdə müxtəlif dövlətlərin diversantları antimilli mövqe ortaya qoyaraq Azərbaycan əleyhinə kampaniya aparırlar, mənəvi dəyərlərimizə qarşı müxtəlif formada terror edirlər: “Bunun qarşısını almaq üçün biz fəal olmalıyıq, cəmiyyət fəal olmalıdır, Azərbaycanın tolerant ölkə kimi təbliği daim gündəmdə olmalıdır. Eyni zamanda Azərbaycan multikultural bir ölkədir, hər bir xalqın dininə, dilinə, mənəvi dəyərlərinə hörmətlə yanaşır”.

Tədbirdə çıxış edən “Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu bildirib ki, dil təkcə ünsiyyət vasitəsi deyil, eyni zamanda mühüm mənəvi dəyərdir. O qeyd edib ki, xalqın formalaşmasında dilin vacib əhəmiyyəti var: “İnsan yeganə varlıqdır ki, dil ünsiyyətindən istifadə edərək bu qədər inkişaf səviyyəsinə gəlib çatıb. Azərbaycan dili çox zəngin dildir, dilimizə zaman-zaman ciddi təzyiqlər olub və dilimiz tarixin mürəkkəb mərhələlərindən keçərək bu günə qədər özünü qoruyub saxlayıb. Bəzi dillər tarixin çətinliklərindən keçə bilməyərək itib. Ulu öndər Heydər Əliyev Sovet dövründə Azərbaycan dilinin dövlət dili kimi qəbul olunmasına nail oldu və dilimizi təzyiqlərdən qurtardı. Bu gün dilimizin qorunması və inkişafı istiqamətində dövlət tərəfindən lazımi tədbirlər həyata keçirilir. Hər kəs dilimizin qorunması istiqamətində fəal olmalıdır”.

“Xalq cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli çıxış edərək bildirib ki, dil mədəniyyətdir, dil məhv olarsa, hər şey məhv olar. E.Mirzəbəyli KİV-də dil məsələsinə toxunub. O qeyd edib ki, bu gün yaranan informasiya resurslarının böyük əksəriyyətində medianın ənənəvi institutları yoxdur, ənənəvi media mexanizmləri aradan çıxıb, ancaq ənənəvi mediada bu mexanizmlər mövcuddur və bu media qurumlarında kifayət qədər peşəkarlar çalışır: “Müasir informasiya və kommunikasiya texnologiyaların inkişaf etdiyi bir dövrdə yeni terminlərin meydana gəlməsi müəyyən çətinliklər yaradır. Yeni texnologiyaların, internet dövrünün inkişaf etdiyi bir zamanda biz də çevik olmalıyıq. Əgər biz proseslərdən geri qalsaq, o zaman dilimizi təzyiqlərdən qoruya bilməyəcəyik. Müasir gənclik informasiyanı internet üzərindən alır, ona görə də bu məsələlərə diqqət yetirməliyik”.

“İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib ki, dil mövzusunda müzakirələr çox aktualdır, dil millətin varlığını təsdiq edən vacib amildir: “Dilimizin qorunub saxlanması və gələcək nəslə çatdırılmasında hər birimizin üzərinə böyük vəzifə düşür. Yeni elektron mediada, o cümlədən televiziya və radioda müəyyən dil qüsurlarına rast gəlinir. Tərcümə olunan ədəbiyyatlarda da dil qüsurlarına rast gəlinir. Bakıda əhalinin çoxu əcnəbi dillərdə danışır. Milli dili yaşatmaq lazımdır. Dövlət nə lazımdırsa edir, ancaq cəmiyyətin fəallaşması da vacibdir. Digər dilləri bilmək də vacibdir, ancaq təəssüflər olsun ki, bəzilərimiz evdə də əcnəbi dildə danışırıq”.

Tədbirdə Nəsimi adına Dilçilik İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Baba Məhərrəmlinin “Qloballaşma dövründə Dilimizin saflığının qorunması məsələsi”, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri Afaq Rüstəmovanın “Dil və siyasət: qarşılıqlı əlaqə məsələləri”, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitika şöbəsinin müdiri Rəşad İlyasovun “Çoxdillilik və multikulturalizm”, AMEA-nın akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunun din və ictimai fikir tarixi şöbəsinin elmi işçisi Elvüsal Məmmədovun “Din ədəbiyyatın tərcüməsi: mövcud vəziyyət və problemlər” mövzularında məruzələri dinlənilib.

# Görkəmli bəstəkar, Xalq artisti Xəyyam Mirzəzadə son mənzilə yola salınıb

İyulun 31-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında Azərbaycanın Xalq artisti, Dövlət mükafatları laureatı, “Şöhrət” və “Şərəf” ordenli görkəmli bəstəkar Xəyyam Mirzəzadə ilə vida mərasimi keçirilib. Vida mərasimində dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, ziyalılar, ictimaiyyətin nümayəndələri iştirak ediblər. Bəstəkarın tabutu önünə Azərbaycan Respublikasının Prezidenti adından əklil qoyulub. Cənazənin ətrafına hökumət qurumları və müxtəlif kollektivlər adından da əkillər düzülüb.

Salonda həzin matəm musiqisi səslənirdi. Xalq artisti





Xəyyam Mirzəzadənin həmkarları, dostları, tanışları, tələbələri, tanınmış mədəniyyət xadimləri axın-axın musiqi akademiyasının binasına gəlir, görkəmli bəstəkara və gözəl insana son borclarını verirdilər.

AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Əbülfəs Qarayev çıxış edərək görkəmli bəstəkar Xəyyam Mirzəzadənin vəfatını böyük itki kimi dəyərləndirib. Azərbaycan mədəniyyətində özünəməxsus yeri və xidmətləri olan görkəmli bəstəkarın keçdiyi sənət yolunu xatırladan nazir deyib: “O, bütün ömrünü Azərbaycan musiqisinin inkişafına sərf edib. Bəstəkarın həyat yoluna nəzər salaraq deyə bilərik ki, o, maraqlı yaradıcı insan ömrünü yaşayıb”.

Nazir qeyd edib ki, Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi Xəyyam Mirzəzadə musiqi mədəniyyətimizin inkişafında müstəsna xidmətləri olan sənətkarlardandır. Sənətkarın yaradıcılığı Azərbaycanın zəngin musiqi sənəti salnaməsinin parlaq səhifələrindən birini təşkil edir. Vurğulanıb ki, o, dünya musiqi irsinin nailiyyətlərindən uğurla bəhrələnərək müxtəlif janrlarda qiymətli əsərlər yaradıb. Ayrı-ayrı illərdə bəstələdiyi instrumental, vokal, simfonik, xor və kamera əsərləri sənətkara şöhrət qazandırıb. Ölkənin musiqi ictimaiyyəti bəstəkarı gözəl nəğmələrin müəllifi kimi tanıyırdı. Onun bəstələdiyi mahnılar uzun illər Azərbaycanın görkəmli ifaçılarının repertuarını zənginləşdirib. Xəyyam Mirzəzadənin respublikamızın hüdudlarından uzaqlarda və dünyanın mötəbər salonlarında, böyük orkestrlərdə və musiqi festivallarında müvəffəqiyyətlə səslənən əsərləri Azərbaycan musiqisinin təbliği işinə mühüm töhfə olub.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar İncəsənət Xadimi Zemfira Qafarova və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının prorektoru Nərminə Quliyeva görkəmli sənətkarın həyat və yaradıcılığından, pedaqoji fəaliyyətindən və insani keyfiyyətlərindən söz açıblar. Qeyd edilib ki, Xəyyam Mirzəzadə çox gözəl pedaqoq idi, tələbələr onu çox istəyirdi. Onun yetişdirdiyi tələbələr nəyinki ölkəmizdə, dünyanın hər yerində Azərbaycanı layiqincə təmsil edirlər. Bildirilib ki, gözəl təşkilatçı olan Xəyyam Mirzəzadə təkcə bəstəkarların yox, həm də rəssamların, yazıçıların dostu idi.

O, geniş dünyagörüşünə, dərin intellektə malik bir şəxsiyyət idi. Xəyyam Mirzəzadə hər bir məsələyə orijinal münasibəti, öz həyat yolu, sənətə fərdi baxışları ilə seçilirdi. Onun haqqında “Bir ömrün fəsilləri: Xəyyam Mirzəzadə - 75” adlı sənədli film çəkilib. Onun əsərləri Avstriya, İngiltərə, Macarıstan, Hollandiya, Almaniya, İtaliya, Fransa və digər ölkələrdə ifa olunub. 30-dan artıq kinofilmə və 15 dram tamaşasına, estrada və caz pyeslərinə musiqi bəstələyib. Onun musiqiləri hər zaman səslənəcək.

Vida mərasimində çıxış edən bəstəkarın oğlu, Xarici İşlər Nazirliyinin Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadə atasının xatirəsinə göstərilən hörmət və ehtirama görə Azərbaycan Prezidenti İlham Əliyevə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Vida mərasimi başa çatandan sonra görkəmli sənətkarın cənazəsi son mənzilə yola salınıb. Mərhum ikinci Fəxri xiyabanda torpağa tapşırılıb.

Allah rəhmət eləsin.

# İctimai nəqliyyat sektorunda vətəndaşlar daha keyfiyyətli xidmətlə təmin olunacaqlar

*Tarif dəyişikliyi bu sahədə çalışanların sosial vəziyyətini daha da yaxşılaşdıracaq*



***Sərnişindaşıma avtobuslarında 10 qəpiklik artım bir sərnişin üçün aylıq 4 manatlıq artım deməkdirsə, bu, ümumilikdə, həmin avtobusları idarə edən sürücülərin əmək haqlarının 50 faiz qaldırılmasına əsas yaradacaq.***

Xəbər verildiyi kimi, ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edilib. Tarif (qiymət) Şurasının iclasında müraciətlərə baxılıb və metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi 1 gediş üçün 30 qəpik, Bakı şəhərində, eləcə də, digər şəhər və rayonlarda sərnişindaşıma xidməti tarifinin yuxarı həddi müntəzəm şəhərdaxili avtobus marşrutları üzrə 1 gediş üçün 30 qəpik, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə, məsafədən asılı olaraq, 1 gediş üçün 30-90 qəpik, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün 2,4 qəpik təsdiq edilib. Qeyd edək ki, Azərbaycanda nəqliyyat xidmətlərinə görə qiymətlər 10 ilə yaxın idi ki, dəyişdirilməmiş qalırdı. Belə ki, müntəzəm avtobus marşrutları üzrə sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri sonuncu dəfə 2007-ci ildə, metroda sərnişindaşıma xidmətinin tarifi isə 2011-ci ildə təsdiq edilib. Bu müddət ərzində, nəqliyyat infrastrukturu yenidən qurulub, ictimai nəqliyyat və metro infrastrukturu müasir standartlara uyğun yenidən formalaşdırılıb. Əlbəttə ki, yeni tarif dəyişikliklərindən sonra da ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflər Azərbaycanda əksər MDB və region ölkələri ilə müqayisədə aşağı olacaq. Çünki hazırda metro ilə sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusda 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,44-1,75 manat, avtobusla müntəzəm şəhərdaxili sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,45 manat, Belarusda 0,44-0,52 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,91 manat, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə tarif isə Rusiyada 5,2-9,2 qəpik/km, Gürcüstanda 4,2-7,5 qəpik/km, Türkiyədə 4,9-8,0 qəpik/km təşkil edir.

Ümumiyyətlə, tarif dəyişikliyi nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsi istiqamətində tədbirlərin daha da sürətləndirilməsi və onun maliyyə təminatının yaxşılaşdırılmasına müsbət təsir göstərəcək. Yəni marşrut avtobuslarında gediş haqqı tariflərinin artırılması sərnişindaşıma fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə imkan verir ki, onlar istehsalat bazalarını, avtobus parklarını yeniləsinlər, daha keyfiyyətli və rahat sərnişindaşıma xidməti göstərsinlər. Bütün bunların olacağı təqdirdə, sərnişindaşıma sektorunda vətəndaşlar daha keyfiyyətli xidmətlə təmin olunacaqlar.

Tarif dəyişikliyi, eyni zamanda, sözügedən sektorda fəliyyət göstərən hüquqi və fiziki şəxsləri təhlükəsizlik və keyfiyyətli sərnişindaşıma işinin təşkilinə daha ciddi və məsuliyyətlə yanaşmalarına əsas yaradır. Bundan sonra bütün müntəzəm marşrut xəttləri üzrə daşıyıcılar kartlı ödəniş sisteminə keçidi sürətləndirməlidirlər. Məhz müntəzəm marşrut xəttlərinin müsabiqəyə çıxarılması ilə bağlı qərarın qəbulu da bu məqsədə xidmət edir.

Tarif dəyişikliyi "Bakı Metropoliteni" QSC-nin də fəaliyyətində keyfiyyət dəyişikliklərinin edilməsini labüdləşdirir. Amma o da qeyd edilməlidir ki, "Bakı Metropoliteni" QSC-də sonuncu tarif dəyişikliyi 2011-ci ilin dekabr ayının 1-də olub. Həmin ilin noyabr ayının 24-də Tarif Şurasının qərarı ilə qiymətlər 15 qəpikdən 20 qəpiyə dəyişdirilib. O dövrdən bu yana "Bakı Metropoliteni" QSC-də heç bir qiymət dəyişikliyi olmayıb.

Əlbəttə ki, budəfəki tarif dəyişikliyi də qiymətlərin çox yüksək olmasına səbəb olmadı. Çünki Azərbaycandakı tarif dəyişikliyindən sonrakı qiymətlər hələ də MDB və region ölkələrdəki qiymətlərdən aşağıdır. Məsələn, avqustun 1-dən etibarən "Bakı Metropoliteni" QSC-də qiymətlər 1 gediş üçün 30 qəpik olsa belə, "Bakı Metropoliteni" QSC postsovet məkanında və yaxın region ölkələri arasında ən ucuz tariflərə malikdir. Belə ki, Kiyevdə bu tarif 41-50 qəpik arasıdır, Daşkənddə 37 qəpikdir. Moskvada isə metronun qiyməti dəfələrlə bahadır. Həta onu da nəzərə almalıyıq ki, Rusiya metro təchizatı ilə bağlı böyük istehsal gücünə malikdir.

Həmçinin, bir faktı da nəzərə almaq lazımdır ki, "Bakı Metropoliteni" QSC metronun istismarı, tikintisi ilə bağlı bütün əsas təchizatını xarici ölkələrdən xarici valyuta hesabına edir. Yəni bu da məsələlərə obyektiv qiymət vermək üçün bir əsas ola bilər. Lakin bununla belə "Bakı Metropoliteni" QSC-də son illərdə bu asılılığın azadılması istiqamətində müəyyən tədbirlər görülür. İkincisi, sərnişinlərin rahatlığı ilə bağlı işlər dir. "Bakı Metropoliteni" QSC-də son illərdə stansiyaların yenidən qurulması və əsaslı təmir işləri kifayət qədər sürətlə aparılır. Artıq "Bakı Metropoliteni" QSC-də istismar müddəti başa çatdıqca, dəyişdirilən eskalatorların sayəsində 75-80 faizi müasir tipli ekskalatorlardır. Eyni qayda ilə digər sahələrdə də işlər davam edir. Məsələn, ən ağır mühüm sahələrdən biri vaqonların əsaslı təmir olunaraq yenidən modernləşdirilməsidir. Əvvəllər vaqonlar təmir olunarkən, ölkə xaricinə göndərilirdi. Hazırda "Bakı Metropoliteni" QSC bunları öz daxili hesabına həyata keçirir. Artıq qatarın xarici ölkəyə nəqlini aradan qaldırılıb və yeni kadrlar hazırlanıb.

Göründüyü kimi, son tarif dəyişikliyi əhalinin büdcəsinə zərər vurmadan ictimai nəqliyyat sektonun inkişafına və bu sektorda çalışanların maddi rifah halının daha da yüksəlməsinə səbəb olacaq. Bunu biz adi riyazi məntiqlə də görə bilərik. Məsələn, sərnişindaşıma avtobuslarında 10 qəpiklik artım bir sərnişin üçün aylıq 4 manatlıq artım deməkdirsə, bu, ümumilikdə, həmin avtobusları idarə edən sürücülərin əmək haqlarının 50 faiz qaldırılmasına əsas yaradacaq. Bu vəziyyət metro nəqliyyatına da aiddir. Amma bütün bunların nəticəsində həm avtobus, həm də metro parkı yenilənəcək və sərnişinlərə yüksək keyfiyyətli xidmət göstəriləcək.

***"Səs" Analitik Qrupu***

# "Dini radikalizm harada savadsızlıq varsa orada özünə yer tapır"



Bir neçə gündür sosial şəbəkələrdə din pərdəsi altında Azərbaycan dövlətçiliyinə və ölkəmizin dünyəvi dövlət sisteminə qarşı açıq-aşkar təhdidlər səslənidirilir, çağırışlar edilir, uydurma, heç dəxli olmayan "informasiyalar" məqsədli şəkildə dövriyyəyə buraxılır. Məsələ ilə bağlı SİA-ya açıqlama verən APA TV-nin baş direktoru Cavid İsmayıl deyib ki, ümumiyyətlə, sosial şəbəkələr XXI əsrin çağırışçılarından biridir: "Həyatımızı artıq sosial şəbəkələrsiz təsəvvür etmək mümkün deyil. Biz bir çox ölkələrin təcrübəsindən görmüşük ki, sosial şəbəkələri bağlamaq da çıxış yolu deyil. Ən doğru çıxış yolu və ən doğru yol bu sosial şəbəkələri ağılla idarə etməyə çalışmaqdır. Bu da nədən ibarətdir?. Təbii ki, insanların cahilliyindən istifadə etməyə çalışan qruplar, xüsusən də müxtəlif dini radikal təriqətlər onlardan öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Ona görə də bizim qarşımızda duran əsas vəzifə bu cür radikal çağırışlara uymayacaq bilgili, informasiyalı XXI əsrin birgə insanlarını yetişdirməkdən ibarət olmalıdır. Dini radikalizm harada cahilliyət, savadsızlıq varsa orada özünə yer tapır. Ona görə də biz insanlarımızı bilgiləndirməyə, maarifləndirməyə çalışmalıyıq".

# "Sərnişindaşıma sektorunda vətəndaşlar daha keyfiyyətli xidmətlə təmin olunacaqlar"



"Marşrut avtobuslarında gediş haqqı tariflərinin artırılması sərnişindaşıma fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə imkan verir ki, onlar istehsalat bazalarını, avtobus parklarını yeniləsinlər, daha keyfiyyətli və rahat sərnişindaşıma xidməti göstərsinlər. Bütün bunlar olacağı təqdirdə, sərnişindaşıma sektorunda vətəndaşlar daha keyfiyyətli xidmətlə təmin olunacaqlar". Bunu SİA-ya açıqlamasında Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat xidmətinin rəhbəri Mais Ağayev deyib. O, sözügedən sektorda fəliyyət göstərən hüquqi və fiziki şəxslərin təhlükəsizlik və keyfiyyətli sərnişindaşıma işinin təşkilinə daha ciddi və məsuliyyətlə yanaşmalı olduqlarını vurğulayıb: "Bütün müntəzəm marşrut xəttləri üzrə daşıyıcılar kartlı ödəniş sisteminə keçidi sürətləndirməlidirlər. Vətəndaşa rahat və təhlükəsiz nəqliyyat xidmətlərinin göstərilməsini hər zaman qarşımıza prioritet məqsəd olaraq qoymuşuq. Bunu nəzərə alaraq, BNA bir daha xəbərdalıq edir ki, işinə laqeyd və məsuliyyətsiz yanaşan daşıyıcılar marşrut xəttlərindən kənarlaşdırılacaq. Bütün müntəzəm marşrut xəttlərinin müsabiqəyə çıxarılması ilə bağlı qərarın qəbulu da bu məqsədə xidmət edir".

# Sənaye parklarında idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurları sadələşdiriləcək



Sənaye parklarında idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurları sadələşdiriləcək. AZƏRTAC xəbər verir ki, iyulun 31-də İqtisadiyyat Nazirliyinin və Dövlət Gömrük Komitəsinin təşkilatçılığı ilə "Sənaye parklarında idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi - "Yaşıl Dəhliz" mövzusunda "dəyirmi masa" keçirilib. İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi, sənayenin inkişafı və rəqabət qabiliyyətinin yüksəldilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması tədbirləri barədə ətraflı məlumat verib. Vurğulanıb ki, sənaye sahəsində biznes fəaliyyətinin dəstəklənməsi və istehsal sahəsində məşğulluğun artırılması məqsədilə sənaye parkları və sənaye məhəllələri yaradılır, sahibkarların səmərəli fəaliyyəti üçün zəruri infrastruktur qurulur, güzəştli rejim tətbiq olunur. Bildirilib ki, sənaye parklarının rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, həmçinin idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən və gömrük rüsumundan azaddır. Niyazi Səfərov qeyd edib ki, sənaye parklarında rezidentlərin idxal-ixrac əməliyyatları zamanı gömrük rəsmiləşdirilməsi prosedurlarının sadələşdirilməsi məqsədilə İqtisadiyyat Nazirliyi ilə Dövlət Gömrük Komitəsi zəruri işlərin təşkilinə başlayıb.

Dövlət Gömrük Komitəsinin idarə rəisi Səməd Qaralov gömrük sistemində aparılan təkmilləşdirmə işləri barədə məlumat verərək, gömrük infrastrukturunun gücləndirildiyini və gömrük prosedurlarının sadələşdirildiyini qeyd edib," Yaşıl Dəhliz"in idxal-ixrac əməliyyatlarının sadələşdirilməsində və sahibkarların vaxtına qənaət edilməsində önəmini diqqətə çatdırıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini Nadir Adilov kiçik və orta sahibkarların fəaliyyətinin əlaqələndirilməsi və sahibkarlığın inkişafının stimullaşdırılması istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə məlumat verərək, KOS-lara göstərilən xidmətlərin bir məkanda - "Kiçik və Orta Sahibkarlıq Evi"ndə birləşdiriləcəyini qeyd edib. "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov sənaye parklarında rezidentlər üçün yaradılmış əlverişli şərait, müasir infrastruktur barədə məlumat verib. O, "Yaşıl Dəhliz"in tətbiqinin sahibkarların sənaye parklarına marağını daha da artıracağını qeyd edib. Sonda "Sumqayıt Kimya Sənaye Parkı" MMC, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, "Təmiz Şəhər" ASC və "Yaşıl Dəhliz Xidməti" şirkəti arasında Anlaşma Memorandumu imzalanıb.

# İqtisadiyyatımız inkişaf edir, əhalinin gəlirləri artır








*Əhalinin gəlirləri 5 ay ərzində nominal ifadədə 9,3 faiz çoxalaraq 20 milyard 753,7 milyon manat olub, ölkə üzrə 29 milyard 294 milyon manatlıq ümumi daxili məhsul istehsal olunub*

***Cari ilin birinci yarımilində də ölkəmizin sosial-iqtisadi inkişafı davam edib, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, sənaye potensialının gücləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli işlər görülüb, nəticədə, əhalinin rifahının yüksəlməsi davam edib. Bu davamlı inkişaf, Ümummilli Lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının 15 il ərzində Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilməsi və gərgin əməyi sayəsində mümkün olub.***

Cari ilin 5 ayı ərzində ölkə üzrə 29 milyard 294 milyon manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,1 faiz çoxdur. Yanvar-may aylarında iqtisadiyyatın qeyri-neft sektorunda ÜDM istehsalı 1,9 faiz artmış, neft sektorunda eyni səviyyədə qalmışdır. Beş ay ərzində istehsal olunmuş əlavə dəyərin 48,8 faizi sənaye, 9,9 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 6,7 faizi tikinti, 6,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi kənd və meşə təsərrüfatları, balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,6 faizi informasiya və rabitə, 13,8 faizi digər sahələrin payına düşmüşdür. Bu dövrdə məhsula və idxala xalis vergilər ÜDM-in 7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 2991,1 manata bərabər olmuşdur.

Ölkədə 19,2 milyard manatlıq (keçən ilin eyni dövründəkindən 0,7 faiz çox) sənaye məhsulları istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 7,8 faiz artmış, neft sektorunda 0,3 faiz azalmışdır. Məhsulların 73,2 faizi mədənçıxarma, 22 faizi emal, 4,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatında 1,2 faiz artım, əmtəəlik qaz hasilatında 8,2 faiz azalma qeydə alınmışdır.

Emal sektorunda avtomobil, qoşqu və yarımqoşquların istehsalı 16,1, tütün məmulatları istehsalı 2,6, poliqrafiya məhsulları istehsalı 2,2, hazır metal məmulatları istehsalı 2 dəfə, mebel istehsalı 96,8, elektrik avadanlıqları istehsalı 96,2, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 95,6, toxuculuq sənayesi məhsulları istehsalı 61,4, tikinti materialları istehsalı 40,4, metallurgiya sənayesi məhsulları istehsalı 18,4, geyim istehsalı 11,4, əczaçılıq məhsulları istehsalı 3,7 faiz artmışdır. Artım, həmçinin, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə olunmuşdur. Yanvar-may aylarında əsas kapitala 5 milyard 240,8 milyon manat vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 73,1 faizi məhsul istehsalı və 20,8 faizi xidmət obyektlərinin, 6,1 faizi ümumi sahəsi 640,8 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf edilmişdir. 53,7 faizi daxili sərmayələr olan bu vəsaitlərin 72,5 faizi, bilavasitə tikinti-quraşdırma işlərinə yönəldilmişdir. Xarici sərmayəyə gəldikdə, hesabat dövründə onların həcmi 2 milyard 426,4 milyon manata çatmışdır. Bu vəsaitin 79,3 faizi Böyük Britaniya, İsveçrə, Türkiyə, Malayziya, ABŞ, Yaponiya, Çexiya, Rusiya və İran kimi ölkələrə məxsusdur. Hesabatda, həmçinin, bildirilir ki, yanvar-may aylarında qeyri-neft sektorunun inkişafına 2 milyard 887,1 milyon manat vəsait sərf olunmuşdur. Həmin vəsaitin 11,9 faizindən (622 milyon manatından) qeyri-neft sənayesi sektorunda istifadə edilmişdir.

Bütün bu vəsaitlər hesabına ilin əvvəlindən ötən 5 ay ərzində ölkə ərazisində çoxsaylı və müxtəlif təyinatlı müəssisə və obyektlər tikilib istifadəyə verilmişdir. Onların sırasında paytaxtda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Bakı Statistika İdarəsinin inzibati binası, "Bona Dea" Beynəlxalq Hospital, Bakı Beynəlxalq Ticarət Limanı Kompleksi, "Dinamo" Hoteli, Bakı Olimpiya Stadionundan Heydər Əliyev Prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağı, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində "Xəzər" Avtomobil Zavodu, Xaçmazda "Azərxalça" ASC-nin filialı, Naxçıvan MR-də 922 şagirdlik 3 ümumtəhsil məktəb binası və ambulator-poliklinika, Təmizləyici Qurğular Kompleksi, Naxçıvan Müəllimlər İnstitutunun yeni binası kimi vacib obyektlər var.

Ölkənin ümumi inkişafı nəqliyyat, informasiya və rabitə sektorlarına da təsir göstərib. Hesabat dövründə ölkə üzrə 88,7 milyon ton yük və 779,3 milyon sərnişin daşınmışdır ki, bu da ötən ilin eyni dövründəkindən, müvafiq olaraq, 0,9 və 1,4 faiz çoxdur. İnformasiya və rabitə müəssisələri bu dövrdə 715,9 milyon manatlıq xidmətlər göstərmişdir. Keçən ilin müvafiq aylarına nisbətən dəyər ifadəsində 6,3 faiz artan həmin xidmətlərin 72,1 faizindən əhali istifadə etmişdir. Maraqlı bir fakt da bu sahədə əldə edilmiş gəlirin 81,1 faizinin qeyri-dövlət sektorunun payına düşməsidir.

Artım, həmçinin, pərakəndə ticarət dövriyyəsində qeydə alınmışdır. Belə ki, sözügedən dövrdə ölkədəki pərakəndə ticarət şəbəkəsindən əhaliyə 13 milyard 697,7 milyon manatlıq məhsul satılmış, 3 milyard 175,5 milyon manatlıq ödənişli xidmət göstərilmişdir. Əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə edilən gəlir 2,4 faiz artmışdır. Əlbəttə ki, artımda əhalinin gəlirlərinin çoxalması da müəyyən rol oynamışdır. Yanvar-aprel aylarında muzdla işləyənlərin nominal əməkhaqqı 3,5 faiz artaraq, 538,8 manata çatmışdır. Ümumilikdə, əhalinin gəlirləri 5 ay ərzində nominal ifadədə 9,3 faiz çoxalaraq, 20 milyard 753,7 milyon manat olmuşdur. İnflyasiyaya gəldikdə, yanvar-may aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 3,2, o cümlədən, ərzaq 3,2, qeyri-ərzaq 3,9, ödənişli xidmətlərin tarifləri 2,6 faiz bahalaşmışdır.

Həmçinin, gömrük orqanlarına qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla yanvar-aprel aylarında ölkənin xarici ticarət dövriyyəsinin həcmi 9 milyard 318,8 milyon dollar olmuşdur. Ticarət dövriyyəsinin 67,5 faizini ixrac, 32,5 faizini idxal məhsulları təşkil etmişdir ki, bu da 3,2 milyard dollarlıqdan çox müsbət saldo deməkdir. Ötən ilin 4 ayı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 32,8, real ifadədə 3,3, o cümlədən, ixrac 2,2, idxal 5,7 faiz artmışdır. Qeyri-neft məhsullarının ixracında da artım kifayət qədər yüksək olmuşdur - faktiki qiymətlərlə 19,3, real ifadədə 11,4 faiz.

Bir sözlə, son aylar ərzində qazanılan uğurlar bir daha hər bir azərbaycanlıda qürur və fərəh hissi doğurur. Bu mənada, hər bir Azərbaycan vətəndaşı əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyilə həyata keçirilən sosial-iqtisadi islahatlar qarşıdakı dövrdə Azərbaycanın nailiyyətlərinin daha da artmasını, ölkəmizin dünyada mövqeyinin möhkəmlənməsini və xalqımızın sosial-iqtisadi vəziyyətinin davamlı olaraq yaxşılaşmasını təmin edəcək, müsbət nəticələr və davamlı inkişaf sayəsində müəyyən etdiyiniz hədəflərə nail olunacaq.

***"Səs" Analitik Qrupu***

# Xalçaçılığın inkişafına dövlət qayğısı artır

*Ölkə başçısının Sərəncamı əsasında Tərtər rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılmasına 2 milyon manat pul ayrılıb*

***Xalçaçılıq sənətinin inkişafı istiqamətində ardıcıl işlər görülməkdədir. Azərbaycan Prezidenti İlham Əliyevin məlum sərəncamları ilə ölkəmizdə tikilən xalça fabrikləri bu sahənin inkişafına istiqamətlənib. Dövlət hesabına tikilən fabriklər lazımi avadanlıqlarla təchiz olunur. "Xalçaçılıq bizim milli sənətimizdir, eyni zamanda, xarici bazarlara çıxışı olan məhsuldur, ölkəmizə valyuta gətirən sahədir, işsizliyi, xüsusilə, qadınlar arasında işsizliyi aradan qaldıran sahədir", - deyən Azərbaycan Prezidenti Cənab İlham Əliyev hər fabrikdə təqribən 150 iş yeri yaradıldığını bildirib: "Qadınların məşğulluğu bizim üçün çox vacibdir. Xalçaçılıq qadın sənətidir. Bəli, qadınlar bu sənəti yaşadırlar".***



Azərbaycan Prezidenti İlham Əliyevin bu sahənin daha da inkişafı ilə bağlı qəbul etdiyi qərarlar isə, bu baxımdan, xüsusilə əhəmiyyətlidir. Azərbaycan Prezidentinin 25 iyul tarixli "Tərtər rayonunda xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı xalçaçılığın inkişafına daha bir təkandır. Sərəncama əsasən, Tərtər rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturunun yaradılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.49.5-ci yarımbəndində göstərilmiş məbləğin 2 milyon manatı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

Məlumdur ki, Azərbaycan Prezidentinin 2016-cı ilin 5 may tarixli Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılıb. Cəmiyyət xalçaçılığı inkişaf etdirərək, ölkədə bu istiqamətdə güclü sənaye potensialı yaratmağı qarşısına məqsəd qoyub. "Azərxalça" ASC-nin yaradılmasının əsas məqsədlərindən biri, məhz xalça və xalça məmulatlarının istehsalı, onların ölkə daxilində və xaricdə satışının təşkili, istehsalatda yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə, bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetirilməsidir. Bu gün "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti dünyanın müxtəlif muzeylərində, şəxsi kolleksiyalarda saxlanılan qədim xalçalarımızı aşkara çıxararaq, onların çeşnilləri əsasında yeni xalçalar toxuyur. Cəmiyyət dünya muzeylərində, kolleksiyalarda saxlanılan, müxtəlif vaxtlarda hərraca çıxarılaraq, satılan Azərbaycan xalçaları barədə məlumat bazası da yaradır. Cəmiyyət tərəfindən 1998-ci ildən 2017-ci ilədək hərraca çıxarılan 100-dən çox qədim xalça haqqında məlumatlar əldə olunub. Vyanada, Londonda, Nyu-Yorkda və digər ölkələrdə keçirilən hərraclarda XVIII və XIX əsrlərdə toxunmuş Azərbaycan xalçalarının satışı ilə bağlı məlumatlar əldə edib. Məlum olub ki, "Qarabağ", "Qazax-Borçalı", "Təbriz", "Quba" qruplarına aid olan xalçaların ən ucuzu 10 min avroya, ən bahalısı isə 233 min ABŞ dollarına satılıb.

Azərbaycan xalçaları 2016-cı il noyabrın 20-də keçirilən "Grogan" hərracında da satışa çıxarılıb. Hərracda ABŞ və Avropa ölkələrindən olan alıcılar iştirak edib və "Grogan"da satışa çıxarılan bu xalçalar, ümumilikdə, 744 min 200 ABŞ dollarına satılıb. 1810-cu ildə toxunmuş Quba namazlıq xalçasını hərracda ən baha qiymətə - 61 min ABŞ dollarına Boston İncəsənət Muzeyi alıb. "Azərxalça" hərraclarda satılan xalçaların çeşnilləri əsasında yeni məhsullar istehsal edir. Müasir Azərbaycan xalçaçıları tarixi yaddaşın, qədim çeşnilərimizin bərpası ilə milli dəyərlərimizə sahib çıxdıqlarını nümayiş etdirirlər.

Xatırladaq ki, artıq "Azərxalça"nın xətti ilə ölkəmizdə yeni fabriklər istifadəyə verilib. Cari ildə ölkəmizin müxtəlif yerlərində əlavə on xalça fabriki açılacaq. Beləliklə, 20 yeni xalça fabriki işə düşəcək. Xalçaçılığın inkişafı iqtisadi cəhətdən də ölkəmizi gücləndirir, eyni zamanda, ölkəmizin dünyada təbliğində ən öndə gedən sənət növlərindən biridir. Artıq ilk məhsullar "Azərbaycan brendi" olaraq beynəlxalq sərgilərdə nümayiş olunur, əl ilə toxunmuş yeni Azərbaycan xalçalarına dünya bazarlarında tələbat böyükdür. Azərbaycan xalçalarının Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qruplarına aid 300-dən çox xalça çeşnisi hazırlanıb və onların bir qismi istehsalatda tətbiq edilib. Dünya muzeylərində və kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalça və xalça məmulatları əsasında çeşnilərin hazırlanmasına üstünlük verilir.

Artıq ASC-nin ilkin mərhələdə yaradılan Füzuli, Şəmkir, Quba kimi rayon filialları artıq tam gücü ilə fəaliyyət göstərir. Hazırda digər filialların binalarının tikintisi davam etdirilir. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verir və həmin sahəni stimullaşdırır.

***Zümrüd BAYRAMOVA***

# İqtisadi inkişaf Azərbaycanda orta aylıq əməkhaqqının daha yüksək olması üçün potensial yaradacaq



Azərbaycanın iqtisadi inkişafı ölkədə orta aylıq əməkhaqqının daha da yüksək olması üçün yetərincə potensial yaradacaq. Bu barədə AZƏRTAC-a Milli Məclisin deputatı, iqtisadçı ekspert Tahir Mirkişili deyib.

T.Mirkişili qeyd edib ki, Azərbaycan MDB ölkələri arasında orta aylıq əməkhaqqının səviyyəsinə görə devalvasiyadan önçəki 2014-cü ildə də 558 dollar əməkhaqqı ilə 4-cü yerdə qərarlaşmışdı. Keçən 3 il ərzində MDB ölkələrində baş verən devalvasiyalar bütün MDB məkanında orta aylıq əməkhaqqının dollar ekvivalentində səviyyəsini azaltdı. Belə ki, Rusiyada orta aylıq əməkhaqqı 2014-cü ildəki 896 dollardan 670 dollara, Qazaxıstanda isə 686 dollardan 459 dollara endi. Əsas səbəb isə bu ölkələrdə baş verən devalvasiyalar nəticəsində dollarla hesablanan məbləğlərin kiçilməsi oldu.

"Azərbaycan iqtisadiyyatı artıq davamlı olaraq müsbət dinamika nümayiş etdirir. Qeyri-neft sektorunun payı durmadan artır və artıq 65 faizə yaxındır. Sənaye və kənd təsərrüfatı istehsalı sürətlə artır, ixracın həcmi böyüyür, xidmət sektorunun payı artır. Ölkə Prezidentinin Sərəncamı ilə hər il əməkhaqlarının və pensiyaların artımı da ölkədə ümumi orta aylıq əməkhaqqının artırılmasına təsir etməkdədir. Ümumilikdə, Azərbaycanda iqtisadi inkişaf ölkədə orta aylıq əməkhaqqının daha da yüksək olması üçün yetərincə potensial yaradacaq", - deyə iqtisadçı ekspert diqqətə çatdırıb.

# Dirijor Cavad Tağızadə: "Belə festivallarda iştirak etmək gənclərin peşəkarlıq səviyyəsinin artmasına çox böyük təsir göstərir"



Tələbə Simfonik Orkestri ilə birlikdə artıq ikinci dəfədir Qəbələ Beynəlxalq Musiqi Festivalında iştirak edirəm. Gənc musiqiçilərimiz bu festivala böyük həvəslə qatılıblar. Onlara bu fürsəti yaratdıqlarına görə festivalın təşkilatçılarına minnətdarlığımı bildirirəm. Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində X Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçısı, Bakı Musiqi Akademiyasının Tələbə Simfonik Orkestrinin dirijoru Cavad Tağızadə deyib. Konsertlərdə, festivallarda iştirak etməyin gənclərin yaradıcılığına, peşəkarlıq səviyyəsinin artmasına çox böyük təsir göstərdiyini vurğulayan istedadlı gənc dirijor deyib: "Səhnəyə çıxmaq o qədər də asan deyil. Tələbələrin təcrübəsi az olduğundan bəzən onlar konsert zamanı həyəcanlanır, problemlər yaranır. Festivallarda iştirak etmək onları həvəsləndirir, ruhlandırır. Musiqiçilərimiz bu festivala ciddi hazırlaşıblar. Necə deyərlər, onlar artıq qastrol həyatına öyrəşirlər".

# Gələn il "Sumqayıt Kimya Sənaye Parkı"nda logistik mərkəzin tikintisinə başlanılacaq



Gələn il "Sumqayıt Kimya Sənaye Parkı"nda logistik mərkəzin tikintisinə başlanılması nəzərdə tutulur. AZƏRTAC-a xəbər verir ki, bu barədə "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin direktoru Nazim Talıbov deyib.

O bildirib ki, parkın 10 hektarlıq ərazisində logistik mərkəzin yaradılması üçün layihə həyata keçirilir. Burada şimal və cənub istiqamətlərdə dəmir yolu xətti mövcuddur. Logistik mərkəzin yaradılması rezidentlərin ixrac və idxal əməliyyatlarına müsbət təsirini göstərəcək.

# Bölgə sakinləri "Nar"-ın "Yerlim" tarifini seçir




2018-ci ilin ikinci rübündə "Nar"-ın bölgələr üçün xüsusi yaradılmış "Yerlim" tarifinə qoşulanların sayı ötən rüblə müqayisədə 7% artıb. Ötən ilin eyni dövrü ilə müqayisədə isə "Yerlim"-ə qoşulanların sayı 53% artıb. Xüsusi olaraq bölgələr üçün nəzərdə tutulan "Yerlim" tarifinə qoşulanların hər keçən gün artması bu tarifin bölgə sakinləri üçün sərfəli olması ilə əlaqədardır. Bölgələrdə yaşayan abunəçilər bu tarifə qoşulmaqla dəqiqəsi 1 qəpikdən zəng edə bilir.

Mobil operatorlar arasında paytaxtla yanaşı, ölkənin regionlarına göstərdiyi diqqətilə seçilən "Nar" yeni istifadəyə verdiyi baza stansiyaları sayəsində öz bölgə tarifinin istifadəçilərinin sayını əhəmiyyətli dərəcədə artırmağa nail olub. 4G və 3G baza stansiyalarının sayını sürətlə artıran "Nar" Azərbaycanın ən ucqar kəndlərini belə mobil rabitə xidmətlərilə təmin etməkdədir.

Mobil operator təkcə 2018-ci ilin ilk yarısında bölgələrdə 162 yeni baza stansiya qurub. Qurulan yeni stansiyalarının 103-ü 4G, 59-u isə 3G baza stansiyasıdır. Ümumilikdə "Nar" 2018-ci ildə ölkənin 33-dən çox rayon mərkəzləri və şəhərlərinə yüksək keyfiyyətli 4G xidmətini gətirib.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirmiş və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

# Havadarın itirilməsi: rəsmi İrəvanın yeni qorxulu röyası

***Yeni hökumət Ermənistanı faciədən faciəyə aparmaqdadır. Son günlər kütləvi informasiya vasitələri bir qrup rus hərbçisinin xəbərdarlıq etmədən Ermənistanın Panik kəndinə atəş aça-aça daxil olaraq sakinləri qorxuya saldığı haqqında yazılar verir. Sadə ermənilər buna etiraz edərək hərbçilərdən izahat tələb edib. Ancaq nə rus hərbçiləri, nə də rəsmi İrəvan insanlara məsələnin əsl tərəfini izah etmirlər. Rusiya hərbçiləri ehtiyac görmür, rəsmi İrəvan isə həqiqəti deyə bilmir. Nəticədə, Ermənistan vətəndaşları bir daha əmin oldular ki, onların təhlükəsizliyinə təminat yoxdur. Bununla yanaşı, Ermənistan özünü yeni geosiyasi ziddiyyətlər burulğanına atmaqdadır. O, havadarlarını belə itirə bilər. Məsələnin bu aspekti üzərində geniş dayanmağa ehtiyac vardır.***

## Qorxu sindromu: ermәni panikasının özəllikləri

Ermənistanın Şirak vilayətinin Panik kəndinə Rusiyanın Gümrüdə yerləşən 102-ci bazasının hərbi qulluqçularının boş patronlarla atəş açaraq qəfil daxil olması yeni siyasi böhran yarada bilər. Əsl panikaya düşən paniklilər, qorxu içində rus zabitdən niyə belə etdiklərinin izahını tələb etsələr də, heç bir konkret cavab ala bilməyiblər. Bir gün sonra hərbi bazanın komandiri Şirakın başçısı ilə görüşüb və guya ki, üzr istəyib. Real olaraq isə Rusiya tərəfi ermənilərə konkret bir şey izah etməyib. Aydın olur ki, Rusiya hərbçiləri hansısa səbəblərdən erməniləri cəzalandırıblar. Onlara sübut ediblər ki, istənilən zaman qəfil istədiyimiz erməni yaşayış məntəqəsinə daxil ola və sizləri məhv edə bilərik. Bu zaman qarşımıza kimsə çıxa bilməz.

Məsələn, Panikdə hadisə baş verən zaman bir nəfər də olsun erməni hərbçisi və ya polisi gözə dəyməyib. Əslində isə orada hadisəyə erməni hüquq-mühafizə orqanları müdaxilə etməli idi. Ən azından Rusiya tərəfi kəndə daxil olacağı haqqında Ermənistanın güc strukturlarına məlumat verməli idi. Bunların heç birinə Rusiya hərbçiləri ehtiyac görməyiblər və kimsə ilə danışmadan kəndə daxil olub, atəş açıblar.

Belə çıxır ki, Rusiya ordusu ermənilərə xəbərdar edib: sizə biz müdaxilə etsək, tamamilə müdafiəsiz qalacaqsınız. Yəni əslində müstəqil erməni ordusu deyilən bir qurum yoxdur. Onun heç xəbəri olmadan ölkənin ortasında rus əsgəri atəş açır və istədiyi yerə gedə bilir. Bu, həm də ona işarədir ki, Ermənistanın təhlükəsizliyi məsələsi tamamilə Rusiyadan asılıdır. Moskvanın bu məsələdə mövqeyi möhkəmdir və güclü təsir mexanizmlərinə malikdir. Təsadüfi deyil ki, Ermənistan KİV-ləri bu məsələyə geosiyasi kontekstdə bir neçə yazı həsr edib və müzakirələr davam edir.

Ekspertlər isə baş verənləri təsadüfi saymır. Onu N.Paşinyanın xarici siyasətinin məzmunu ilə sıx bağlayırlar. Mütəxəssislərin fikrinə görə, küçə hərəkatı haqqında ifrat pozitiv əhval-ruhiyyəyə qapılan ermənilərə yanıldıqlarını anlatmağa çalışırlar. N.Paşinyan Brüsseldə Qərb ilə yaxın əməkdaşlıqdan danışıb və yardım istəyib. Bunun mümkün olmadığını rusiyalı ekspertlər birmənalı ifadə edirlər. Çünki Ermənistanın müdafiə sistemi, iqtisadiyyatı, ticarətinin böyük bir hissəsi Rusiyaya bağlıdır. Avropa İttifaqı isə geosiyasi güc kimi Rusiyaya qarşı duranlardandır. Belə bir şəraitdə Aİ-Ermənistan yaxınlaşması necə ola bilər?

Onda rəsmi İrəvanın bu istiqamətdəki cəhdləri ancaq bir nəticə verə bilər. Ermənistana yardım edənlər və havadar kimi onu müdafiə edənlər bundan imtina edə bilərlər. Çünki havadarlıq etibarlı köləyə edilir. Ermənilər tarix boyu onu-bunu sata-sata gəliblər. İndi Ermənistanın bir cəmiyyət olaraq mövcudluğunu faktiki olaraq Rusiya təmin edir. Əgər Moskva əlini çəksə, Ermənistan deyilən bir dövlət qalmaz. Bunu Rusiyalı ekspertlər açıq yazırlar. Məsələn: "Xatırladaq ki, Ermənistan Azərbaycana silah satılmasından artıq narazıdır. İrəvanda açıq deyirlər ki, RF erməniləri KTMT-nin üzvü və erməni ərazisində baza saxlayan ölkə kimi müdafiə etməlidir. Bu zaman nədənsə unudulur ki, əgər Rusiya faktoru olmasaydı, Azərbaycan çoxdan müharibə ilə ermənilərin işğal etdiyi torpaqları qaytarardı" (bax: İrina Djorbenadze. Erevan naçal şantajirovatğ Moskvu pri pomohi NATO / Rosbalt.ru, 16 iyul 2018).

Deməli, Moskva aydın işarə verir: Dağlıq Qarabağda erməni işğalçı qüvvələrinin qalmasını təmin edən əsas güc Rusiyadır və əgər N.Paşinyan xarici siyasətdə Qərbə meylliliyi artırsa, vəziyyət dəyişə bilər! Bu, Ermənistanın çox güclü bir havadarını itirməsi anlamına gəlir. Kreml tərəddüd etmədən İrəvanı ağır cəzalandıra bilər.

Məsələ bununla məhdudlaşmır. Avropa da artıq Ermənistana şübhə edə bilər. Çünki S.Sarkisyan bir dəfə Brüsseli möhkəm aldadıb. Onunla assosiativ üzvlüklə bağlı müqavilə imzalayacağını deyib, lakin son anda sərt şəkildə üzünü Rusiyaya tutub. Əgər N.Paşinyan buna bənzər hərəkət etsə, Brüsselin ona inanmaq üçün əsası qalmayacaq. Rəsmi şəxslər nə qədər "mən erməni sevdalısıyam" (Donald Tusk) desələr də, siyasi reallıq fərqli yanaşma tələb edir.

## Ziddiyyətlərə doğru: Ermənistan xarici siyasətinin yeni problemləri

Nikol Paşinyanın Avropa ilə səmimi və etibarlı davranacağı ehtimalı olduqca azdır. Birincisi, N.Paşinyan siyasi hazırlıq baxımından çox aşağı səviyyəlidir. Onun kifayət qədər təcrübəsi, biliyi və iradəsi yoxdur ki, mümkün riskləri göz önünə ala bilsin və sona qədər irəliləsin.

İkincisi, ABŞ-Aİ münasibətləri indi böhran keçirir və onların geosiyasi aspektdə vahid mövqedən çıxış etmələri getdikcə daha çətin olur. Hətta D.Tramp açıq ifadə edir ki, Avropa Amerika üçün yükdür və ona düşməndir. Avropa isə təkbaşına hərbi və təhlükəsizlik məsələlərində Rusiyaya qarşı dura bilməz. Moskva onları darmadağın etmək iqtidarındadır. Xüsusilə ənənəvi olaraq güclü olduğu bir bölgədə.

Üçüncüsü, Ermənistan artıq bir hərbi alyansın - Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Həm də iqtisadi cəhətdən Avrasiya İqtisadi İttifaqına sıx bağlıdır. Onun bu təşkilatları yaxın perspektivdə tərk etmək şansı yoxdur. Buna nə Rusiya icazə verər, nə də Ermənistanın özünün manevr imkanları yetər. Aİ də elə gücdə deyil ki, Ermənistanı dərhal özünün hansısa strukturuna daxil etsin. Bir neçə ildir ki, Gürcüstanı iqtisadi-ticari baxımdan tam müstəqil edə bilmirlər. Ona göstərdikləri yardımlar böyük layihələri reallaşdırmağa imkan vermir.

Dördüncüsü, Ermənistan özünü Azərbaycan və Türkiyənin düşməni kimi aparır. İrəvan bəyan edir ki, xarici siyasətdə əsas məqsədi "türk ekspansiyasının qarşısını almaqdan ibarətdir". Belə də strategiya olar? Yeni Ermənistanın bütün gücü Türkiyənin qarşısını almağa yönəlib? Əgər Brüssel buna yardım etsə, özü çox pis vəziyyətə düşə bilər. Türkiyə regionun ən güclü dövlətidir və getdikcə imkanları daha da artır. Min Ermənistan olsa da, Türkiyənin inkişafının qarşısını ala bilməz. Həm də bu cür antihumanist, orta əsr təfəkkürü ilə, lokal ultraşovinist ruhlu siyasətlə hansı uğuru qazanmaq olar? Ermənilərin sözü ilə bütün dünya türklərə düşmən olmalıdır?

Təbii ki, absurd şeylərdir. Hətta Rusiya belə ermənilərin bu əsassız istəklərinə gülür və açıqca Azərbaycanla, Türkiyə ilə əlaqələri daha da inkişaf etdirir. Və bunlar onu göstərir ki, Brüssel Ermənistanla bu şərtlər daxilində yaxınlaşmaq istəsə, öncə geosiyasi maraqlarını və bütövlükdə rasional düşüncə tərzini itirməlidir. Belə çıxır ki, Ermənistan Rusiyadan bu üsulla uzaqlaşmaq fikrinə düşməklə həm də Avropa İttifaqını itirmək riski yaradıb. Yəni Moskva ilə yanaşı, Brüssel də havadarlıqdan imtina edə bilər. Rəsmi İrəvanın növbəti qeyri-konstruktiv və reallığa əsaslanmayan siyasəti ölkəni geosiyasi dalana dirəməkdədir.

Əslində, Ermənistanın bir çıxış yolu var. Regionun güclü dövlətləri olan Azərbaycan və Türkiyəyə qarşı siyasətini köklü surətdə dəyişmək! İşğal etdiyi torpaqları üzr istəməklə tərk etmək və tədricən Bakı ilə münasibətləri yoluna qoymağa çalışmaq. Bu üsulla Ermənistan müxtəlif beynəlxalq layihələrə qoşula və tədricən müstəqil dövlət kimi ayağa dura bilər. Ondan sonra havadarları məsələlərinə yenidən baxa bilər. Gürcüstan Ermənistanla iş görmür. İranın İrəvana münasibəti məlumdur. Qərb də düşmən deyil. Azərbaycanla Türkiyə də torpaqların işğalına görə onunla əlaqə saxlamırlar. Əgər bu maneəni Ermənistan aradan qaldıra bilsə, onun üçün risklər xeyli azalar.

Bütün bunları sadə insanlar belə dərk edir. Erməni siyasətçilər isə şovinizmə, düşmənçiliyə, başqasına qarşı nifrətə olan mövqeyə o qədər alışdırılıblar ki, bu adi həqiqətləri görə bilmirlər. Nəticədə, qəfil Panik panikə düşür!




**Newtimes.az**

# “Jurnalistika” fakültəsinə qəbul üçün keçirilən qabiliyyət imtahanları qaneedicidirmi?

***“2018/2019-cu tədris ili üzrə III ixtisas qrupu imtahanından 200-dən yüksək bal toplayan abituriyentlər “Jurnalistika” fakültəsinə qabiliyyət imtahanında iştirak etmək üçün qeydiyyatdan keçməlidirlər”. Bu fikirləri SİA-ya açıqlamasında Dövlət İmtahan Mərkəzinin mətbuat xidmətinin rəhbəri Xanlar Xanlarzadə deyib.***



O bildirib ki, “Jurnalistika” fakültəsinə qabiliyyət imtahanı üçün qeydiyyat iyul ayının 29-dan başlayaraq avqust ayının 1-dək davam edəcək: “Jurnalistika ixtisasına qəbul olmaq üçün internet vasitəsilə anket dolduraraq qeydiyyatdan keçmiş və III ixtisas qrupu üzrə test imtahanı verərək müsabiqə şərtini ödəyən abituriyentlər iştirak edə biləcəklər. Sözügedən fakültəyə qabiliyyət imtahanı avqustun 6-da keçiriləcək”.



## “İmtahan komissiyasının tərkibi Dövlət İmtahan Mərkəzi və Mətbuat Şurası ilə birgə tərtib olunur”

İmtahana müəllim və jurnalistlərin dəvət olunduğunu deyən mətbuat xidmətinin rəhbəri söyləyib ki, qabiliyyət imtahanı mərhələsində təqdim olunmuş mövzu üzrə inşa (esse) yazısının biri müəllim, biri jurnalistlər tərəfindən yoxlanılır: “Abituriyentlər tərəfindən yazılan iş həm mətbuat nümayəndəsi, həm də filoloq tərəfindən yoxlanılır. Komissiyanın tərkibi Dövlət İmtahan Mərkəzi və Mətbuat Şurası ilə birgə tərtib olunur. Belə ki, DİM imtahanla bağlı əvvəlcədən Mətbuat Şurasına müraciət edir və şura da öz növbəsində imtahan komissiyasında təmsil olunacaq jurnalistlərin adlarını bizə göndərir. İmtahanlarda filoloqların iştirakı mütləqdir. Çünki, imtahanın elə qaydaları var ki, ona dil-ədəbiyyat müəllimi qiymət verməlidir”.

2014-cü ildən tətbiq edilən qabiliyyət imtahanı bu sahəyə hansı dəyişiklikləri gətirib? Nəticələr qaneedicidirmi?

## “İmtahanın ölkənin tanınan jurnalistləri tərəfindən aparılması daha məqbuldur”

İmtahanlarda komissiya üzvü kimi iştirak edən “Bakı-Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev bildirib ki, “Jurnalistika” fakültəsinə qabiliyyət imtahanının ölkənin tanınan jurnalistləri tərəfindən aparılması daha məqbuldur: “Çünki, bu imtahanlarda iştirak edən abituriyentlərlə şifahi söhbətdə, əsasən “Jurnalistika” sahəsinin praktik tərəfləri sual obyektinə çevrilir. Bir neçə il ardıcıl olaraq “Jurnalistika” fakültəsinə qabiliyyət imtahanlarında iştirak etmişəm. Təcrübəmə əsaslanaraq deyə bilərəm ki, bu imtahanın, əsasən jurnalistlər tərəfindən aparılması daha düzgündür. Bununla mən imtahanların birmənalı şəkildə jurnalistlərin monopoliyasına daxil edilməsini demək istəmirəm. Lakin imtahan komissiyasında üstünlük filoloqlara deyil, peşəkar jurnalistlərə verilsə, daha yaxşı olar”.



## “İmtahanlarla məqbul nəticələr əldə edə bilərik”

İştirak etdiyi imtahanları diqqətlə izlədiyini deyən baş redaktor söyləyib ki, “Jurnalistika” ixtisasına qabiliyyət imtahanları texnologiya cəhətdən tələbatlara tam cavab verir: “Həm yazılı mətnlərin seçilməsi, həm abituriyentlərə dövlətimizin, cəmiyyətimizin həyatına aid olan maraqlı məsələlərlə əlaqədar sualların qoyulması əhatəli olmaqla yanaşı, tələblərə cavab verir. Bu baxımdan düşünürəm ki, hazırkı formada qabiliyyət imtahanlarının aparılması ilə məqbul nəticələr əldə edə bilərik”.

## “Hazırda keçirilən qabiliyyət imtahanları qaneedici deyil”



Bakı Dövlət Universitetinin (BDU) Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor Cahangir Məmmədli isə deyib ki, hazırda keçirilən qabiliyyət imtahanları qaneedici deyil : “Çünki, aşağı bal toplayan abituriyentlər müsabiqə balını üstünə gələrək fakültəyə daxil olduqları üçün, “Jurnalistika” fakültəsinə daxil olanların əksəriyyəti savadsız olur. Bu baxımdan qabiliyyət imtahanının hazırkı formatı məni qane etmir. Aşağı bal yığan abituriyentlər jurnalistikaya gəldiyi üçün onların ümumi dünyagörüşü, bilik səviyyəsi bizi təmin etmir. Bu hal narahatlıq yaradır. Jurnalistika fakültəsində dərs deyən bir müəllim kimi bunun şahidiyəm. İstərdim ki, qaydaların üzərində yenidən iş işlənsin, yeni qaydalar müəyyənləşdirilsin”.

## “Qabiliyyət imtahanı qəbul imtahanlarından əvvələ keçirilsin”

Kafedra müdiri qeyd edib ki, “Jurnalistika” fakültəsinə qabiliyyət imtahanı qəbul imtahanlarından əvvələ keçirilsə daha yaxşı olar: “Yadınızdadırsa, 6-7 il bundan öncə “Jurnalistika” fakültəsinə qəbul balı “Hüquq” fakültəsini də ötüb keçirdi. Lakin hazırda demək olar ki, ən aşağı bal yığan abituriyentlər “Jurnalistika” fakültəsinə gəlir”.

## “İmtahanların şərtlərində dəyişiklik etməyə ehtiyac var”

Ötən il BDU-nun “Jurnalistika” fakültəsinə 90 abituriyentin qəbul olunduğunu deyən C.Məmmədli söyləyib ki, onların içərisində yalnız 10-15 nəfəri savadlıdır: “Qabiliyyət imtahanlarının təkmilləşdirilməsinə ehtiyac var. Çünki, imtahanlar zamanı yazılan esse hər şeyi həll etmir. Abituriyentlərin dünya görüşünü ətraflı şəkildə yoxlamaq üçün qabiliyyət imtahanlarının şərtlərində də dəyişiklik etməyə ehtiyac var. Bunun Mətbuat Şurası ilə BDU-nun birgə müzakirə etməsi mümkündür”. Kafedra müdiri əlavə edib ki, hazırkı qabiliyyət imtahanları ilə peşəkar jurnalistlərin yetişdirilməsi mümkün deyil: “Xammal çox zəif olduğundan, peşəkarlar yetişdirmək çətindir”.

Məlumat üçün nəzərinizə çatdıraq ki, “Jurnalistika” fakültəsinə qabiliyyət imtahanı zamanı abituriyentlər təqdim olunmuş mövzu üzrə inşa (esse) yazacaqlar. Yazı işi abituriyentin imtahan verdiyi bölmədən asılı olaraq Azərbaycan və ya rus dilində yerinə yetirilməlidir. İnşa (esse) abituriyentin təklif olunmuş mövzu üzrə öz nöqteyi-nəzərini əsaslandırılmış surətdə ifadə etdiyi müstəqil yaradıcı yazı işidir. Abituriyentlərə ictimai-siyasi, iqtisadi, mədəni həyat sahələrinə aid, həmçinin respublikamız, görkəmli şəxsiyyətlərimiz, təhsil, ixtisas seçimi, ətraf mühit, mənəviyyat və bütün bəşəriyyəti narahat edən digər qlobal problemlər haqqında müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən sərbəst mövzular təklif olunur. İnşa yazıda (essedə) abituriyent öz fikirlərini aydın və savadlı ifadə etməlidir.

Yazı işi bir sıra meyarlar nəzərə alınmaqla “məqbul” və ya “qeyri-məqbul” ilə qiymətləndiriləcək. “Qeyri-məqbul” qiyməti mövzunun zəif açıldığı və ya heç açılmadığı, abituriyentin mövzunu səthi bildiyini və ya heç bilmədiyini aşkara çıxaran, mətnin hissələri arasında məntiqi əlaqənin pozulduğu, 6 və daha çox dil və nitq səhvi olan yazılara verilir.

Yazı işi qiymətləndirilən zaman aşağıdakı meyarlar nəzərə alınır:

X verilmiş mövzunun başa düşülməsi, mövzu üzrə materialı, əsas fakt və hadisələri bilmə;

X abituriyentin mövzuya orijinal yanaşması, öz nöqteyi-nəzərini əsaslandırılmış şəkildə ifadə etmək bacarığı, mövzunun açılma səviyyəsi, fikirlərin aydın və anlaşıqlı ifadə olunması;

X çıxarılan nəticələrin məntiqli və əsaslandırılmış olması;

X yazı üslubunun orijinallığı, dilin zənginliyi, obrazlılığı və səlisliyi, savadlılıq səviyyəsi;

X yazı işinin ədəbi dilin fonetik, leksik, qrammatik və üslub normalarına, orfoqrafiya və durğu işarələrinin işlədilməsi qaydalarına tam riayət etməklə tərtib olunması.

Yazı işində abituriyentlərin özləri haqqında hər hansı məlumat yazması və ya hansısa işarə vurması qadağandır. Belə hala yol vermiş abituriyentlərin yazı işləri “sıfır” balla qiymətləndiriləcək. İnşa yazı (esse) 2-4 səhifə (ən azı 400 söz) həcmində olmalıdır. Başqa mövzuda, həmçinin 1 səhifədən (200 sözdən) az həcmdə yazılmış inşalar da “0” balla qiymətləndiriləcək.

***Nailə Məhərrəmova***

---

Mehman İsmayılov:
## “Azərbaycan tarixən dostluğun məkanı olub”

“İslam dini insanların şəxsiyyəti, kamilləşməsi və insanın mənliyini ucaltması ilə bağlı prinsiplər məcmusu olan bir dindir. Belə bir dini hər hansı bir pərdə altında hansısa bir anti-Azərbaycan təbliğatının vasitəsinə çevirmək əlbəttə ki, hər şeydən əvvəl o dinin özünə qarşı hörmətsizlikdir”. Bunu SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov deyib.



“Hətta deyərdim ki, o dinin məsnublarına qarşı böyük bir hörmətsizlikdir. Azərbaycan tarixən dini-milli ənənələrin, tolerantlığın, dostluğun, qardaşlığın məzhəblərarası, dinlərarası, millətlərarası dostluğun məkanı olub. Təbii ki, bu gün də bu inkişaf edir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu sahədə yürütdüyü siyasət əlbəttə ki, bu ənənələrin daha da güclənməsinə, inkişaf etməsinə gətirib çıxarıb. Ona görə də Azərbaycan vətəndaşı olaraq bizim üzərimizə düşən əsas vəzifə odur ki, din pərdəsi altında insanların dini duğularından istifadə edərək onu alət edənlərin oyununa gəlməməkdir və dövlətimizin, dövlətçiliyimizin arxasında möhkəm birləşməkdir”-deyə, Fondunun icraçı direktoru fikrini tamamlayıb.

## Müdafiə naziri cəbhəboyu zonadakı hərbi hissələrdə olub



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən hərbi hissələrdə tikinti-quruculuq işləri davam etdirilir. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonadakı hərbi hissələrə gələrək tikilməkdə olan bir sıra hərbi obyektlərə baxış keçiriblər. Müdafiə naziri inşaat işlərinin gedişini yoxlayıb və müvafiq tapşırıqlar verib.

Sonra nazir hərbi hissələrdə yaradılan şəraitlə tanış olub. General-polkovnik Z.Həsənov qərargahda xidməti və inzibati otaqlara, hərbi-tibb müəssisələrinə, eləcə də hərbi texnika üçün nəzərdə tutulmuş saxlanclara, avtoparka baxış keçirərək konkret tapşırıqlar verib. Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha şəxsi heyətin diqqətinə çatdıran müdafiə naziri, qarşıda duran vəzifələrin icrası, xidməti şəraitin daha da yaxşılaşdırılması, hərbi qulluqçulara yüksək səviyyəli tibbi xidmətin göstərilməsi və digər məsələlər barədə müvafiq göstərişlər verib.

# Qiymət artımının məntiqi izahı var

***Məlum olduğu kimi, Tarif (qiymət) Şurasının keçirilən iclasında ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edilib. Tarif (qiymət) Şurasının iclasında müraciətlərə baxılıb və metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi 1 gediş üçün 30 qəpik, Bakı şəhərində, eləcə də digər şəhər və rayonlarda sərnişindaşıma xidməti tarifinin yuxarı həddi müntəzəm şəhərdaxili avtobus marşrutları üzrə 1 gediş üçün 30 qəpik, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə məsafədən asılı olaraq 1 gediş üçün 30-90 qəpik, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün 2,4 qəpik təsdiq edilib.***



İqtisadçı Samir Əliyev açıqlamasında bildirib ki, ayrı-ayrı ölkələrdə stimullaşdırıcı tədbirlər görülür. Azərbaycanda da, bu istiqamətdə işlər görülməlidir: “Tıxacların qarşısının alınması məqsədilə hökumət dəmiryol nəqliyyatına daha həssas yanaşmalıdır”.

S.Əliyevin fikrincə, hökumət dəmiryol nəqliyyatını subsidiyalaşdırmalıdır: “Subsidiyalaşma odur ki, xidmət maya dəyərindən 50 faiz ucuz satılır. Geridə qalan 50 faizi xidmət üçün dövlət ödəyir. İndiki dövrdə bu istiqamətdə işlər aparılmalıdır. Onu da vurğulamaq yerinə düşər ki, ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflər Azərbaycanda əksər MDB və region ölkələri ilə müqayisədə aşağıdır. Belə ki, hazırda metro ilə sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusda 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,44-1,75 manat, avtobusla müntəzəm şəhərdaxili sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,45 manat, Belarusda 0,44-0,52 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,91 manat, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə tarif isə Rusiyada 5,2-9,2 qəpik/km, Gürcüstanda 4,2-7,5 qəpik/km, Türkiyədə 4,9-8,0 qəpik/km təşkil edir.

### Tural Abbaslı: “Müxalifət köhnə amplusundan çıxa bilmir”

Ən qəribəsi isə, müxalifət yenə də öz çirkin əməllərindən əl çəkmir. Belə ki, sözügedən məsələ ilə bağlı “AG” Partiyanın sədri Tural Abbaslı bildirib ki, hər bir qiymət artımı istənilən normal siyasi mühitə malik olan dövlətlərdə müxalifət üçün bir bəhanədir.

T.Abbaslı bildirib ki, müxalifət həmişə olduğu kimi, köhnə əməllərindən əl çəkmir: “Ölkədə baş verən ictimai-siyasi hadisələrə müxalifət liderləri, ən yaxşı halda, sosial şəbəkələrdə anormal statuslar yazmaq, mənasız bəyanatlar verməklə kifayətlənirlər. Bu statusların da əsasını müxalifət liderləri tərəfindən xalqın qınanılması dayanır. Qaldı ki, Tarif Şurasının çıxardığı qərarı müxalifəti dırnaqarası ayıltdı. Yenə də həqiqətə uyğun olmayan məlumatlar verməklə, ölkədə təxribata yol açmaq, bununla da diqqəti özlərinə cəlb etməyə çalışırlar. Ancaq bütün bunlara baxmayaraq, Azərbaycanda qiymətlərin bu səviyyəsi əksər MDB və region ölkələri ilə müqayisədə aşağıdır. Həmişə olduğu kimi, hökumətdə qiymət artımı ilə bağlı aşağı təbəqənin də maraqları nəzərə alınır. Qiymət artımlarına müvafiq olaraq, əhalinin də sosial gəlirlərinin artırılması istiqamətində müvafiq qərarlar qəbul edilir. Bu isə, bir daha sübut edir ki, Azərbaycan rəhbərliyini düzgün iqtisadi siyasət yürütməməkdə ittihamlayan müxalifətin irəli sürdüyü bütün arqumentlər əsassızdır.

Dağıdıcı müxalifət anlamalıdır ki, Azərbaycanda qiymət artımı siyasi konyuktura xarakteri daşımır və sırf iqtisadi maraqlar nəzərə alınaraq, belə qərar qəbul edilib. Ölkə müxalifəti bu vəziyyətdən sui-istifadə edərək əhalinin narazı, aztəminatlı təbəqəsini öz tərəfinə çəkməyə çalışması isə, heç cür mümkün deyil. Çünki insanlar müxalifəti qətiyyətlə rədd edirlər.

***Rəfiqə HÜSEYNOVA***

# Dünyada avtobus və metroda gediş haqqının ən aşağı olduğu ölkə -Azərbaycan





Azərbaycanda nəqliyyat xidmətlərinə görə qiymətlər 10 ilə yaxın idi ki, dəyişdirilməmiş qalırdı. Belə ki, müntəzəm avtobus marşrutları üzrə sərnişindaşıma xidmətlərinin tariflərinin yuxarı hədləri sonuncu dəfə 2007-ci ildə, metroda sərnişindaşıma xidmətinin tarifi isə 2011-ci ildə təsdiq edilib. Bu müddət ərzində nəqliyyat infrastrukturu yenidən qurulub, ictimai nəqliyyat və metro infrastrukturu müasir standartlara uyğun yenidən formalaşdırılıb. Yeni tarif dəyişiklərindən sonra belə ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə tariflər Azərbaycanda əksər MDB və region ölkələri ilə müqayisədə aşağı olacaqdır. Hazırda metro ilə sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,40 manat, Belarusda 0,48-0,56 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,44-1,75 manat, avtobusla müntəzəm şəhərdaxili sərnişindaşıma xidmətinin tarifi Rusiyada 0,80-1,50 manat, Qazaxıstanda 0,20-0,45 manat, Belarusda 0,44-0,52 manat, Gürcüstanda 0,35 manat, Türkiyədə 0,91 manat, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə tarif isə Rusiyada 5,2-9,2 qəpik/km, Gürcüstanda 4,2-7,5 qəpik/km, Türkiyədə 4,9-8,0 qəpik/km təşkil edir. Tarif dəyişikliyi nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsi istiqamətində tədbirlərin daha da sürətləndirilməsi və onun maliyyə təminatının yaxşılaşdırılmasına müsbət təsir göstərəcək.

# Arzu Nağıyev: “Dini radikalizmə qarşı müəyyən mübarizə aparılır”



“Hər bir dövlətin milli təhlükəsizliyinə təhdidlər olur. Təbii ki, bu təhdidlərdən biri də dini radikalizmdir. Hətta dini radikalizmi ABŞ-da 2001-ci ilin 11 sentyabr hadisələri olana kimi qəbul etmirdilər. Sonradan isə bu qəbul olunmağa başlandı. Daha sonra isə bu istiqamətdə müəyyən mübarizələr aparılır”. Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Arzu Nağıyev deyib.

Onun sözlərinə görə, bu gün istər sosial şəbəkələrdə, istərsə də elektron kütləvi informasiya vasitələrində, çap mediasında və s. zorakılığa, təxribata, işğalçılıq siyasətinə çağırış bu birmənalı şəkildə öz rüşeymində vurulmalıdır: “Bu, ləğv olunmalıdır. Bu gün məlum məsələdir ki, Azərbaycanda sosial şəbəkələrdə həddindən artıq gənclər var. Onların birmənalı şəkildə məqsədi bu gəncləri nəyin bahasına olursa-olsun bu terror təşkilatlarına cəlb etməkdir. Təbii ki, bunun da bir sıra metodları var. Əsasən insan yorğun, ac, yuxusuz olanda bu metoddan istifadə edirlər. Artıq bunun qarşısının alınması istiqamətində bir sıra addımlar atılır. Təbii ki, burada psixoloqlar işləməlidir və xüsusi xidmət orqanları tam şəkildə buna nəzarət etməlidir. Yəni bunun qarşısı alınmasa çox böyük fəsadlar verir. Ona görə də sosial şəbəkələrə nəzarət etmək və belə məsələlərin qarşısını almaq məqsədəuyğun bir prosesdir”.

# Siyasi şərhçi: “Azərbaycanda İslamın dəyərləri qorunur”



“Sosial şəbəkələrdə din pərdəsi altında kampaniya aparanlar vahid mərkəzdən idarə olunan qruplardır. Şübhəsiz ki, burada ilk növbədə xarici amillər dayanır. Din amili burada pərdə rolunu oynayır”. Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

Onun sözlərinə görə, bütün bu prosesin nə İslama, nə də onun dəyərlərinə hər hansı bir formada aidiyyatı yoxdur: “Məqsəd Azərbaycanın daxilində qarşıdurma yaratmaqdan, ölkəmizdə olan tolerant mühiti pozmaqdan və bununla da Ermənistanın əlinə fakt verməkdən ibarətdir. Çünki onlar Dağlıq Qarabağdakı ermənilərin azərbaycanlılarla birgə yaşaya bilmədiklərini ön bir şərt kimi irəli sürürlər və digər separatçı iddialarını bildirirlər. Ermənistanın bu günə qədər sübut etmək istədiyi amillərdən biri də məhz Azərbaycanın xalqının tolerant olmamasıdır. Şübhəsiz ki, tolerantlıq xalqımızın mənəvi dəyəridir və əsrlər boyu cilalanaraq gəlib bu günə çatıb. Təbii ki, Azərbaycan dövləti tolerantlığı ölkənin əsas dəyərlərindən biri hesab edir. Bizim düşmənlərimiz bizi məhz bu nöqtədən vurmağa cəhd göstərirlər. Bu məsələnin arxasında Dağlıq Qarabağı Azərbaycandan qoparmaq niyyəti dayanıb. Məqsəd bundan ibarətdir. Bütün əks arqumentlərin, irəli sürülən iddiaların hər hansı bir formada əsası yoxdur. Azərbaycanda vicdan azadlığı tam təmin olunub və bütün dini konfessiaslar birgə rahat yaşayırlar. Azərbaycanda İslamın dəyərləri qorunur. Bu, təkcə ayrı-ayrı icmalar şəklində deyil, eyni zamanda dövlət tərəfindən də ciddi dəstək verilir.

Bildiyiniz kimi, ölkəmizdə “İslam Həmrəyliyi ili” elan olundu və İslam Həmrəyliyi Oyunları keçirildi. Bütün bunlar ölkəmizin özünün mənəvi dəyərlərə nə qədər yüksək dəyər verdiyini sübuta yetirir. Bu aspektdən müxtəlif dini iddialarla çıxış etmək, fikirlər səsləndirmək şübhəsiz ki, əsassızdır. Əslində, bütün bunlar bəhanədən, yalnış məlumatlardan və informasiyadan başqa bir şey deyil. Məqsəd cəmiyyətin diqqətini yayındırmaq, eyni zamanda Azərbaycan ətrafında qeyri-tolerant ölkə aurası yaratmaqdan ibarətdir”.

# “Tarif Şurasının qərarı nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə müsbət təsir göstərəcək”



“Nəqliyyat infrastrukturunun keyfiyyətinin yüksək səviyyəyə çatdırılması üçün Tarif Şurasının ictimai nəqliyyat xidmətlərinin qiymətinin tənzimlənməsinə dair qərarına ehtiyac var idi. Dəyişiklik nəqliyyat infrastrukturunun daha da təkmilləşdirilməsi istiqamətində tədbirlərin sürətləndirilməsinə və onun maliyyə təminatının yaxşılaşdırılmasına müsbət təsir göstərəcək”. Bunu SİA-ya açıqlamasında millət vəkili, iqtisadçı ekspert Aydın Hüseynov deyib. İctimai nəqliyyat vasitələrindən istifadə edənlərin sayında ciddi artımın olduğunu qeyd edən millət vəkili ölkəmizə gələn turistlərin sayının durmadan artdığını bildirib: “Metro qiymətlərinin artımına gəldikdə, bu nəqliyyat vasitəsi dövlətin ayırdığı dotasiya ilə çalışır. Bu səbəbdən Tarif Şurası dövlətin xərclərini azaltmaq üçün belə bir qərar verib. Dövlət isə bu sahəyə ayırdığı xərclərə qənaət edərək vəsaiti digər sosial layihələrə və əmək haqlarının artırılmasına yönəldəcək. Dövlətimizin apardığı iqtisadi siyasətin ən başlıca prioritetlərindən biri sosial problemlərin həllidir. Son dövrlərdə aparılan çoxsaylı islahatlar da ölkənin sosial-iqtisadi vəziyyəti ilə bağlıdır”. A.Hüseynov vurğulayıb ki, digər MDB ölkələri ilə müqayisədə Azərbaycanda nəqliyyat sektorundakı qiymətlər daha aşağıdır: “Ölkəmiz MDB məkanında əmək haqlarının həcminə görə 5-ci yerdədir. Dəyişiklik, əslində dövlətin yükünün vətəndaşlar arasında bölüşdürülməsi deməkdir”.

Qeyd edək ki, ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edilib. Tarif (qiymət) Şurasının iclasında müraciətlərə baxılıb və metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi 1 gediş üçün 30 qəpik, Bakı şəhərində, eləcə də digər şəhər və rayonlarda sərnişindaşıma xidməti tarifinin yuxarı həddi müntəzəm şəhərdaxili avtobus marşrutları üzrə 1 gediş üçün 30 qəpik, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə məsafədən asılı olaraq 1 gediş üçün 30-90 qəpik, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün 2,4 qəpik təsdiq edilib.

***Qlobal maliyyə böhranı fonunda bir çox dünya ölkələri tənəzzül dövrünü yaşadığı halda, Azərbaycanda inkişaf tendensiyası davam edir və hər bir sahədə uğurlu nəticələr müşahidə olunur. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə neft sektoru, kənd təsərrüfatı, sənaye və digərləri olmaqla iqtisadiyyatın bütün sahələri üzrə əldə olunan yüksək göstəricilər diqqətdən kənarda qala bilməz. Dünya İqtisadi Forumunun nüfuzlu indeksi sayılan "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında Azərbaycan ən yaxşı inkişaf etməkdə olan ölkələr sırasında üçüncü yerə layiq görülüb. Ən qürurverici və sevindirici hal ondan ibarətdir ki, ölkəmiz MDB məkanında birinci yerdə qərarlaşıb. Həmin hesabatda Azərbaycan, Litva və Macarıstan istisna olmaqla, digər bütün inkişaf etməkdə olan ölkələri geridə qoyub. Əslində, ölkəmizin Litva və Macarısandan, müvafiq olaraq, 0,17% və 0,05% geriliyi belə cüzi faiz təşkil edir və dinamik inkişaf tendensiyasının fonunda bu da, öz növbəsində, ən yaxın gələcək üçün birincilik proqnozlaşdırmağa tutarlı əsas verir. Təbii ki, "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında Azərbaycanın inkişaf etməkdə olan ölkələr üzrə ilk üçlükdə, həmçinin, MDB-də lider olaraq qərarlaşdırılması Prezident İlham Əliyevin apardığı sürətli, məqsədyönlü, inklüziv iqtisadi islahatlara beynəlxalq qiymətdir.***



# Azərbaycan dünya ölkələrinə nümunədir

## "İnklüziv İnkişaf İndeksi 2018" hesabatında Azərbaycanın irəliləyişi uğurlu islahatların nəticəsidir

Hesabatın əsas qayəsi insanların maddi və sosial rifah halının, məşğulluq, sağlam həyat gözləntilərinin qiymətləndirilməsi və ölçülməsidir. Əgər sözügedən indeks üzrə Azərbaycan ilk üçlükdə qərarlaşırsa, bu, Azərbaycanda əhalinin sosial rifah halının digər ölkələrə nisbətdə daha yaxşı olmasının etirafıdır. Bu, eyni zamanda, Prezident İlham Əliyevin ölkədə apardığı sosial iqtisadi islahatların tərkib hissəsi olaraq dəyərləndirilir. Hətta hesabatı tədqiq və təhlil etdikdə, tam şəkildə əmin olmaq mümkündür ki, müxtəlif indikatorlar üzrə Azərbaycanın mövqeyi bütün MDB-dən və bir sıra Avropa ölkələrindən daha yaxşıdır və bu reallığı bütün dünya qəbul edir.

İnklüziv inkişaf indeksi, "Artım və İnkişaf", "İnklüzivlik", "Nəsillərarası bərabərlik və dayanıqlılıq" kimi 3 əsas indikator olmaqla, 12 sub-indikatora əsasən formalaşır və inkişaf etmiş, eləcə də, inkişafda olan ölkələrin reytinqini formalaşdırır. Hesabat ölkələrin adambaşına düşən ÜDM, əmək məhsuldarlığı, sağlam həyat gözləntiləri, məşğulluq, yoxsulluq dərəcəsi, xalis yığımların tənzimlənməsi və s. sub-indikatorlar əsasında hazırlanır. Təbii ki, bütün bu göstəricilər Azərbaycan Prezidentinin son illər apardığı dərin iqtisadi islahatların nəticəsidir və əhalinin bütün təbəqələrinin maddi, eyni zamanda, sosial rifah halını daim diqqətdə saxlayan Cənab İlham Əliyevin ölkəmizdə apardığı sosial siyasətin də beynəlxalq reytinqlər tərəfindən obyektiv və yüksək şəkildə qiymətləndirilməsidir.

İkinci əsas indikator sayılan "İnklüzivlik" indikatoru əhali arasında təbəqələşmənin səviyyəsi, yoxsulluğu, fiziki şəxslər və ev təsərrüfatlarının gəlirlərinin bölgüsünü təyin edir və hesabata əsasən, sözügedən indikator üzrə ölkəmizin əldə etdiyi qiymətləndirmə nəticələri dünyanın inkişaf etməkdə olan ölkələrinin nəticələrindən daha üstündür. Hesabatın metodologiyasına əsasən, bu əmsal 0-100 bal arasında dəyişir ki, məsələn 0 bal olduqda, əhali arasında bərabərliyin ən yüksək səviyyədə, 100 bal olduqda isə əhali arasında bərabərsizliyin ən yüksək səviyyədə olmasından xəbər verir. Azərbaycan 28,6 balla qiymətləndirilib ki, bu sub-indikator üzrə isə Azərbaycan, hətta lider Litvanı da geridə qoyaraq, Macarıstandan sonra ən yaxşı göstəriciyə malikdir.

Digər sub-indikator olan yoxsulluq üzrə də ölkəmizin mövqeyi yüksəkdir və bu indikator ölkədə əhalinin neçə faiz hissəsinin 3 dollardan daha aşağı gəlir əldə etməsini təyin edir ki, həmin faiz dərəcələri ilə yoxsulluq göstəriciləri üzrə ölkələr sıralanır. Azərbaycan hesabatda orta-yüksək gəlirli ölkələr sırasına daxildir və bütün MDB-dən öndədir. Xüsusi olaraq, vurğulamaq yerinə düşər ki, MDB-də yoxsulluq reytinqi üzrə ən aşağı göstərici Tacikistan, Qırğızıstan və ələlxüsus Ermənistanın payına düşür.

### Azərbaycan dövlət borcunun ÜDM-də payına görə MDB və regionun lider dövlətidir

Hesabatın "Dayanıqlılıq" indikatorunu isə dövlət borcunun hesablanması, asılılıq indeksi sub-indikatorları təşkil edir. Dövlət borcunun ÜDM-də payına əsasən Azərbaycan Qlobal Rəqabətlilik hesabatında olduğu kimi, bu hesabatda da yüksək qiymətləndirilib. Dövlət borcu indikatorunun metodologiyasına əsasən, xalis borcun tərkibinə müxtəlif öhdəliklər daxildir. Bu öhdəliklərə depozitlər, istiqrazlar, ödəniləcək kreditlər, sığorta, pensiyalar və digər öhdəliklər daxildir və dövlət borcunun tərkib hissəsidir. Hesabatın qiymətləndirilməsi təsdiq edir ki, Azərbaycan dövlət borcunun ÜDM-də payına görə MDB və regionun lider dövlətidir. Bundan əlavə, Azərbaycanın strateji valyuta ehtiyatları beynəlxalq iqtisadi qurumlar qarşısında rahat borc götürməyə imkan yaradır. Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan beynəlxalq layihələr rentabelliyinə və gələcək perspektivlərinə görə aparıcı beynəlxalq iqtisadi təşkilatların, bankların və fondların hər zaman diqqətində olub. Bu səbəbdən, Azərbaycan dövlət borclarının səmərəli icrasına görə, hər zaman nüfuzlu beynəlxalq indekslər tərəfindən müsbət qiymətləndirilib.

### Ölkəmizdə olan fəal iqtisadi əhalinin sayı daha çox üstünlük təşkil edir

Asılılıq göstəricisi olan sub-indikator isə iqtisadi cəhətdən fəal əhali ilə fəal olmayan əhalinin iqtisadiyyatda yeri, iqtisadi cəhətdən fəal əhalinin iqtisadiyyata töhfəsini hesablayır. Beynəlxalq indeksin metodologiyasına əsasən, 15-64 yaş arası iqtisadi fəal əhali sayı və 100 nəfərə düşən hesaba əsasən qiymətləndirmə aparılır. Eyni zamanda, beynəlxalq iqtisadi ədəbiyyatlar asılılıq indeksi deyərkən əhalinin neçə faizinin işlək olduğu və gəlir götürmək qabiliyyətinə malik olduğunu ölçür. Sözügedən əmsalın çox olması əhali arasında iqtisadi cəhətdən fəal olmayan əhalinin çox olması deməkdir. Bu da, öz növbəsində, sosial təminat, sosial müdafiə və səhiyyə xərclərinin daha çox olması anlamana gəlir ki, bu iqtisadiyyatda əlavə dəyər yaratma qabiliyyətinə mənfi təsir edir. Azərbaycan bu sub-indikator üzrə 40,9% səviyyəsində qiymətləndirilib və bu da əksər inkişaf etmiş və inkişafda olan ölkələrin faiz dərəcələrindən olduqca azdır. Başqa sözlə desək, ölkəmizdə olan fəal iqtisadi əhalinin sayı daha çox üstünlük təşkil edir.

Azərbaycan Litva və Macarıstandan cüzi faizlərlə geri qalsa da, müvafiq olaraq, reytinqdə Latviya, Polşa, Xorvatiya, Ruminiya, Bolqarıstan, Makedoniya kimi ölkələri 0,2%- 0,5% dərəcələri ilə, qonşu Rusiyanı 0,49%, Türkiyəni 0,43%, Gürcüstanı 0,7%, İran İslam Respublikasını 0,61%, Ermənistanı 1,03% qabaqlayıb. Hazırda digər ölkələr bir tərəfə Ermənistanı Azərbaycanla müqaisə belə etmək olmaz və ölkəmizin inkişafı, üstünlüyü diqqət mərkəzindədir. Sözsüz ki, bu inkişaf və irəliləyiş, eyni zamanda, müqaisə edilə bilməyəcək dərəcədə üstünlük ölkə Prezidentinin məqsədyönlü və doğru strategiyası sayəsində əldə edilib və bunu da beynəlxalq reytinq təşkilatları layiqincə qiymətləndirir. Azərbaycan bu gün dünya ölkələrinə digər sahələrlə yanaşı, iqtisadi inkişaf yönündə də nümunədir. Bu gedişlə və Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan islahatların, beynəlxalq və regional layihələrin köməyi ilə tezliklə ölkəmiz daha böyük uğurlara imza atacaq və ən qısa zamanda, bütün dünya ölkələrini qabaqlayaraq, mütləq liderliyə hakim çıxacaq. Bir sözlə, Azərbaycanın əldə etdiyi nailiyyətlər, beynəlxalq reytinq təşkilatlarının ədalətli və yüksək qiymətləndirmələri, proqnozlaşdırılan gələcək perspektivlər ölkə başçısının uğurlu siyasətinin məntiqi nəticəsidir.

***İnam HACIYEV***

# "Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb və bayraq kimi müqəddəsdir"

## *Hikmət Şikarov: "Müstəqilliyə gedən yolda ana dilinin ictimai-siyasi nüfuzunun güclənməsi Ümummilli Lider Heydər Əliyevin dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub"*



Hikmət Şikarov,
Yeni Azərbaycan Partiyası
Pirallahı rayon təşkilatının sədri

***Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan və inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Ana dilimiz xalqımızın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş və onun taleyini yaşamışdır. Əsrlər boyu xalqımızın əbədiyaşarlığına xidmət edən ana dilimiz qədim tarixə malik olan, min illərin burulğanlarından alnıaçıq və üzüağ çıxaraq, müasir dövrə gəlib çatmış ən böyük mənəvi sərvətimizdir. Ana dilimiz dövlət rəmzlərimiz olan himn, gerb və bayraq kimi müqəddəsdir. Çünki ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Ana dili hər bir xalqın milli sərvəti və həmin xalqın varlığının təsdiqidir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, onun ana dilində öz əksini tapır. Dilini itirən xalq isə məhvə məhkumdur.***

Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir. Xalqımız və millətimiz tarix durduqca bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Ancaq Azərbaycan dilinin yaxın keçmişdə ciddi sınaqlarla üzləşdiyini də unutmaq olmaz. İstər ruslaşdırma siyasətindən sonra, istərsə də Azərbaycanın Sovet imperiyasının tərkibində olduğu illərdə dilimizə qarşı hücumların dalğası kəsilmək bilmirdi. Lakin Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli Lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu.

Dahi Öndər Heydər Əliyev və Azərbaycan dili XX əsrin 60-cı illərindən bəri həmişə qoşa çəkilmişdir. Çünki Heydər Əliyev Azərbaycanda səlahiyyət sahibi olduğu andan Azərbaycan dilini təkcə ünsiyyət vasitəsi kimi deyil, onu dövlət siyasətinə çevirmiş, bir an da olsa, diqqətdən yayındırmamışdır. 1969-1982-ci illərdə Sovet Azərbaycanına rəhbərlik edən Ümummilli Lider bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi. Bunlarla kifayətlənməyən Ümummilli Lider 1978-ci ildə tarixi bir uğura imza atmış, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında, ilk dəfə olaraq, rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə etmişdir. Bu isə Azərbaycan yerli dilin rəsmi dil statusuna malik olduğu azsaylı Sovet respublikalarından biri idi. Bütün bunlar, onu göstərir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. 1980-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda milli azadlıq hərəkatının gedişində ana dilinin ictimai-siyasi nüfuzunun güclənməsi də Ümummilli Lider Heydər Əliyevin vaxtilə yürütdüyü siyasətin, bilavasitə nəticəsi idi. Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra hakimiyyətə gələn naşı və səriştəsiz şəxslərin idarəetmədəki təcrübəsizliyi müstəqilliyimizi uçuruma aparır və ölkəni məhvə sürükləyirdi. AXC-Müsavat hakimiyyəti dövründə bu uçurum özünü daha qabarıq şəkildə büruzə vermişdir. Onlar heç bir məntiqi əsasa söykənmədən dövlət dilinin adının dəyişdirilməsini və "Türk dili" adlandırılmasını təklif edirdilər. Uzun mübahisələrdən sonra AXC-Müsavat hakimiyyəti xalqın rəyini nəzərə almadan, referendum keçirmədən 1992-ci ilin dekabrında "Dövlət dili haqqında" Qanunu "müzakirə" edərək Azərbaycanda dövlət dilinin "Türk dili" olması barədə qərar qəbul etmişdir. Hətta təcili olaraq ana dili dərsliklərini "Türk dili" adlı dərsliklərlə əvəzləyərək çapını da həyata keçirmişdir.

Xalqın təkidli tələbi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm yetirən Ümummilli Lider ana dilimizin - Azərbaycan dilinin adını özümüzə qaytarmışdır. 1995-ci ildə qəbul edilən konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edildi. Konstitusiyanın qəbulu ərəfəsində dövlət dilinin adı ilə bağlı keçirilən geniş ictimai müzakirələr Azərbaycan dilinin nüfuzunun artırılmasına təsir etdi, dövlət dilinin müstəqil dövlət üçün nə demək olduğunu əyani şəkildə göstərdi. 1995-ci ildə qəbul edilən konstitusiyada Azərbaycan dili milli dövlətçiliyimizin rəmzlərindən biri olaraq təsbit edildi. 2001-ci ildə Ümummilli Liderimizin imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman isə yalnız cari bir sənəd deyil, xüsusi tarixi əhəmiyyət daşıyan böyük siyasi hadisə idi. Məhz Ulu Öndər Heydər Əliyevin yürütdüyü dil siyasətinin nəticəsində bütün dövlət və qeyri-hökumət təşkilatlarında, indiyə qədər Azərbaycan dilindən istifadə etməmiş qurumlarda dövlət dili, sözün həqiqi mənasında, bərqərar edildi. Eləcə də, latın qrafikasına keçid prosesi başa çatdırıldı.

Ümummilli Lider Heydər Əliyevin 9 avqust 2001-ci ildə imzaladığı Sərəncama əsasən, avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Bu, Azərbaycan dili tarixində əlamətdar və önəmli hadisədir. Bundan əlavə, qəbul edilən digər fərman və sərəncamlar əsasında dilimizin inkişafı, ana dilində təhsilin keyfiyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Ümummilli Lider Heydər Əliyev müxtəlif ölkələrdəki diaspor nümayəndələrimizlə görüşlərində dəfələrlə vurğulayıb ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlı öz ana dilini və milli adət-ənənələrini unutmamalıdır. "Nə yaxşı ki, Azərbaycan dili bütün tələblərə cavab verir. Daha doğrusu, onun böyük potensialı imkan verib ki, o, artıq dünya dilləri içərisində öz layiqli yerini tutmuşdur", - ifadəsi də Ulu Öndərimizə məxsusdur.

Hazırda Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır. Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirir. Latın qrafikasında kütləvi nəşrlərin meydana çıxması, dövlətimizin başçısının 9 aprel 2013-cü il tarixli Sərəncamı ilə "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi bunun parlaq nümunəsidir. Ümumiyyətlə, Ümummilli Lider Heydər Əliyevin siyasəti Azərbaycanda ana dilinin - ümumxalq dilinin tərəqqisi üçün elə bir tarixi şərait yaratmışdır ki, biz həmin siyasətin uzun illər uğurla davam edəcəyinə əminik.

## Ermənistanda siyasi gərginlik artır



Ermənistan Respublikaçılar Partiyasının parlamentdəki fraksiyası ölkənin sabiq prezidenti Robert Köçəryanın həbsi ilə bağlı bəyanat yayıb. AZƏRTAC "RİA Novosti" agentliyinə istinadla xəbər verir ki, bəyanatda hökumətin demokratiyaya, hüququn aliliyinə və məhkəmə orqanlarının müstəqilliyinə zidd qərarının baxılması üçün beynəlxalq məhkəmələrə göndəriləcəyi bildirilib.

Bəyanatda vurğulanıb ki, R.Köçəryana qarşı qaldırılmış cinayət işi daxili siyasi vəziyyətin daha da gərginləşməsinə gətirib çıxaracaq. "Əsassız ittiham cəmiyyətdə parçalanma meyillərinin güclənməsinə səbəb olur ki, bu da Ermənistanın və "Artsax"ın ətrafında cərəyan edən təhlükəli hadisələr fonunda ciddi narahatlıq doğurmaya bilməz", - deyə parlament fraksiyası üzvləri hökumətə xəbərdarlıq edirlər. Ermənistan hakimiyyətini beynəlxalq öhdəliklərinə əməl etməyə çağıran deputatlar qeyd ediblər ki, sabiq prezidentə qarşı qaldırılan cinayət işi konstitusiyaya zidd olmaqla yanaşı, ölkənin beynəlxalq nüfuzunu daha da aşağı salacaq.

## Şəkərli diabet xəstələrinə göstərilən tibbi xidmətin yaxşılaşdırılmasına dair sərəncam imzalanıb




Səhiyyə naziri Oqtay Şirəliyev "Şəkərli diabet xəstələrinə göstərilən tibbi xidmətin yaxşılaşdırılması, keyfiyyət və səmərəliyinin artırılması üzrə tədbirlərin sürətləndirilməsi haqqında" sərəncam imzalayıb.

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, sərəncamda "2016-2020-ci illər üçün şəkərli diabet xəstəliyi üzrə Dövlət Proqramı"nın icrası üzrə nazirliyin Fəaliyyət Planında göstərilmiş tədbirlərin sürətləndirilməsi məqsədilə işçi qrupu yaradılıb. Sənəddə işçi qrupuna şəkərli diabet xəstələrinə göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması və səmərəsinin artırılması üzrə Tədbirlər Planı təsdiq edilib. Planın icrası barədə mütəmadi olaraq nazirliyə hesabatın təqdim edilməsi tapşırılır. Tədbirlər Planına diabet əleyhinə dərman vasitələrindən istifadə edən xəstələrin qeydiyyat sisteminin təkmilləşdirilməsi, dərman vasitələrinə əlçatanlığın yaxşılaşdırılması, xəstələrə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması, şəkərli diabetin profilaktikası və müalicə prinsiplərinə dair məlumatlılıq səviyyəsinin yüksəldilməsi daxildir.

## Cocuq Mərcanlıda 25 nəfər özünüməşğulluq proqramına cəlb olunub



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra edilən və aztəminatlı ailələrin sahibkarlığa çıxışına imkan yaradan özünüməşğulluq proqramı Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndini də əhatə edir. Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Cocuq Mərcanlı kəndində müraciət edən şəxslərdən müvafiq potensiallara malik 25 nəfər özünüməşğulluq proqramına cəlb olunub. İlkin mərhələdə onlar üçün kiçik biznesin təşkili üzrə bilik və bacarıqlara yiyələnmələri məqsədilə iki qrup üzrə təlim kursları təşkil edilib. Qruplardan biri üzrə 13 nəfər artıq kursu başa vurub, təqdim etdikləri biznes-planları qiymətləndirmə zamanı müsbət dəyərləndirilib. Bu biznes-planların böyük əksəriyyəti kənd təsərrüfatı sahələri üzrə kiçik ailə təsərrüfatlarının yaradılmasını nəzərdə tutur.

Digər qrup üzrə 12 nəfərin təlim prosesi isə davam edir. Təlim kurslarını başa vuranların uğurlu hesab edilən biznes-planları üzrə kənddə kiçik ailə təsərrüfatlarının yaradılması, məşğulluq imkanlarının artırılması, nəticə etibarilə burada kiçik sahibkarlığın inkişafının dəstəklənməsi məqsədilə yaxın vaxtlarda aktivlərlə (mal və materiallarla) təminatın həyata keçirilməsinə başlanacaq.

# Nikol Paşinyanın siyasi savadsızlığı Ermənistanı uçuruma aparır



## Mübariz Əhmədoğlu: "Erməni radikallar da başa düşürlər ki, Paşinyan oğlunun adından manipulyasiya edir"

***İşğalçı Ermənistanın sosial-iqtisadi cəhətdən vəziyyətinin daha da pisləşdiyi, ölkədə tənəzzül prosesinin durmadan genişləndiyi müşahidə olunur. Ölkənin iqtisadi cəhətdən xaricdən asılı olması isə yaşanan problemlərin daha da dərinləşməsinə gətirib çıxarır. Bunun səbəbini yeni baş nazir Nikol Paşinyanın sələfi Sarkisyandan fərqlənməyən siyasəti, eləcə də, iqtisadi və hərbi savadsızlığı ilə bağlıdır. Halbuki Ermənistan hakimiyyəti inqilabi dəyişiklikdən sonra yeni seçilən baş nazir Nikol Paşinyan xalqına müraciətində demişdir ki, bundan sonra Ermənistan iqtisadiyyatı yüksələn xətlə inkişaf edəcək və bütün sferalarda islahatlar aparılacaq. Ancaq Paşinyanın 3 aylıq hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatlar getmədiyini qeyd edirlər. Sabiq prezident Serj Sarkisyanın dövründən qalan tənəzzül, iflas, korrupsiya və bürokratik əngəllər bu gün də davam etməkdədir. Nikol Paşinyan hakimiyyətə gəlişindən sonra Serj Sarkisyanın tərəfdarlarını vəzifələrdən çıxarmaqla və ya bir qismini həbsə atdırmaqla, bir növ, işini bitmiş hesab edir.***

Ermənistan geridə qalmış ölkə kimi hər zaman Rusiyanın köməyi hesabına yaşayan bir ölkə olduğu sirr deyil. İndi isə Nikol Paşinyan Avropa dairələrinin köməyinə güvənərək, yardım istəməsi də ölkənin iflas kökündə olduğunu aydın şəkildə görmək mümkündür. Bədbəxt N.Paşinyanın Brüssel görüşündən əliboş qayıtması və ölkəni bu kritik vəziyyətdən necə çıxaracağı haqqında hələ çox düşünəcək. Lakin dəfələrlə qonşu ölkələr rəsmi Ermənistana bəyan etmişlər ki, "Azərbaycanın torpaqlarını sülh yolu ilə qaytarsan və əvəzində Azərbaycan və Türkiyə ilə iqdisadi əlaqələr qurmaqla, ölkənizi iqtisadi çətinliklərdən qurtara bilərsən". Ancaq N.Paşinyanın S.Sarkisyanın yolunu tutub getməsi erməni xalqını daha da iflas vəziyyətinə salır.









### Vladimir Yevseyev: "Ermənistan rəhbərliyi Rusiyaya əlavə problemlər yaratmağa çalışır"

Rusiyalı hərbi ekspert Vladimir Yevseyev Ermənistanın baş naziri Nikol Paşinyanın yürütdüyü daxili və xarici siyasəti kəskin tənqid edərək, bildirib ki, onu da keçmiş prezidentlərin taleyi gözləyir. "Svobodnaya Pressa" qəzetinə müsahibə verən Yevseyevin fikrincə, Paşinyan Qərb stulunda oturmaqla, Ermənistanın beynəlxalq arenadakı mövqeyini dəyişmək niyyətindədir. Lakin buna cəhd edərkən, mövcud reallıqları görməzlikdən gəlir və belə bir şəraitdə Rusiyanın hələ də Ermənistanın təhlükəsizliyini təmin etməsini və əvvəlki ölçüdə dəstək verməsini istəyir ki, bu da tamamilə absurd və qəbuledilməzdir: "Serj Sarkisyan iki stulda əyləşmişdi. Nikol Paşinyan isə başlıca olaraq, Qərb stulunda əyləşmək istəyir. Amma bununla belə, Rusiyadan müəyyən imtiyazlar - ucuz təbii qaz, güzəştli şərtlərlə silah almaq istəyir və tələb edir ki, Rusiya Ermənistanı müdafiə etsin, onun təhlükəsizliyini qorusun. Əgər istəyirsənsə, səni Qərb dəstəkləsin, onda qoy Dağlıq Qarabağ bölgəsində də səni Qərb qorusun. Qoy Türkiyə qarşısında sənin təhlükəsizliyinlə NATO-nun üzv dövlətləri məşğul olsunlar. Əgər Qərblə daha sıx əməkdaşlığa niyyətlisənsə, təhlükəsiziliyinin qayğısına da Qərbdəki tərəfdaşların qalsınlar".

Rusiyalı ekspert Ermənistanın keçmiş prezidenti Robert Koçaryanın və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının fəaliyyətdə olan baş katibi Yuri Xaçaturovun 2008-ci ilin mart qırğınında ittiham edilməsinə də münasibət bildirərək, bunu Rusiyaya qarşı təxribat kimi qiymətləndirib. Onun sözlərinə görə, Paşinyanın bu davranışları birtərəflidir və Ermənistan Konstitusiyasına ziddir: "KTMT-yə üzv olan dövlətlərin əksəriyyəti təşkilatın baş katibi postuna Ermənistandan bir nümayəndənin təyin edilməsinə ciddi şəkildə qarşı çıxırdılar. Xüsusən də, Qazaxıstan. Nəticədə, uzun müddət bu post boş qaldı. Xaçaturov yalnız böyük çətinliklərdən sonra 2017-ci ildə baş katib təyin edildi. Amma indi Ermənistan rəhbərliyi Rusiya ilə məsləhətləşmədən Xaçaturovu dövlət çevrilişində ittiham edir. Bütün bunlar Paşinyanın Brüsseldəki NATO sammitinə qatılması, alyansın üzvlərini Ermənistana siyasi dəstəkdən əlavə, lazımi maddi kömək göstərməməkdə ittiham etməsi fonunda baş verir. KTMT-də, onsuz da bir çox problemlər var və aydın olur ki, Ermənistan rəhbərliyi Rusiyaya əlavə problemlər yaratmağa çalışır."

### Paşinyan erməni lobbisinin əlində oyuncaqdır

Bir sözlə, acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan, necə deyərlər, Ermənistanı iflasdan-iflasa sürükləməkdədir. Bu, faktdır ki, Ermənistanın heç bir sərvəti olmayan, qonşu ölkələrlə iqtisadi potensialı olmayan və nədən qazanıb iqtisadiyyat quracağı bəlli deyil. Nə qədər ki, Ermənistan Azərbayanın işağal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi-siyasi məhrumiyyətlərə və məşəqqətlərə düçar olacaq. Bunu dərk etmək çətin olmasa da, N.Paşinyan anlamaq istəmir. Çünki müstəqil deyil, böyük güclərin, erməni lobbisinin əlində oyuncaqdır. Qondarma gedişlər etməklə, itirməkdə olduğu siyasi imicini möhkəmləndirməyə çalışır. Hətta şou xarakterli oyun oynamaqla, oğlunun hərbi xidmətini Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda keçirməsinə münasibət bildirən Siyasi İnnovasiya Texnologiyaları Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu "Səs" qəzetinə açıqlamasında N. Paşinyanın ağıllı, savadlı və dərin düşüncəli rəhbər olmadığını bildirib: "Fikir vermisinizsə, "Exo Moskvı" televiziyasına verdiyi müsahibəsində Paşinyan deyir ki, mən oğlumu müharibə getməyən Dağlıq Qarabağa sülh məqsədi ilə göndərmişəm. Amma müsahibənin digər bölümündə bildirir ki, əgər mənim oğlum ordadırsa və öz ölkəmi və xalqımı qorumaqdan ötrü heç nəyimi əsirgəmiyəcəm. Bilirsiniz, N.Paşinyanın fikirləri dolaşıqdır və bir-birilə ziddiyyət təşkil edir. Birincisi, oğlunu Dağlıq Qarabağa göndərməklə dərin düşüncəli yox, əksinə, dayaz düşüncəli adam olduğunu sübut edir. İkincisi, onun oğlunun hərbi xidmət yaşı Ermənistan qanunlarına görə, 4-5 il bundan qabaq keçib. Onun oğlu Baltikyanı dövlətlərin birində, elə də nufuzu olmayan ali məktəbə daxil oldu və orada təhsil aldı. Ermənistan qanunlarına görə, 18 yaşı tamam olan gənclər ali məktəblərə qəbul olunmurlar, hərbi xidmətə getməlidirlər. Yalnız istedadlı gənclərə hərbi xidmətdən möhlət verilir ki, onlar nüfüzlu ali məktəblərə daxil olsunlar. Amma N.Paşinyanın oğlunun elə bir istedadı yoxdur. O vaxtlar demaqoq deputatlardan idi ki, həyasızlıq edib, oğlunu hərbi xidmətə getməyə qoymadı. İndi baş nazir olaraq, oğlunu hərbi xidmətə göndərməklə populistlik edir. Düşünür ki, radikallar gələcəkdə mitinq keçirərlər və yaxud hakimiyyəti devirə bilərlər, bu halda, radikal qrupların gözünə soxmaq istəyir ki, o, oğlunu hərbi xidmətə göndərib. Yəni oğlunu Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ ərazisinə xidmət etməyə göndərməklə, sadəcə, radikallar qarşısında siyasi xal yığmağa ümid bəsləyir".

M.Əhmədoğlunun sözlərinə görə, erməni radikallar da başa düşürlər ki, Paşinyan oğlunun adından manipulyasiya edir: "Mənim şəxsən oxuduğuma görə, N.Paşinyanın oğluna Xənkəndidə kirayə mənzil axtarırlar ki, orada yaşasın. Adı olacaq ki, guya Paşinyanın oğlu Dağlıq Qarabağda hərbi xidmətdədir. Məsələ aydındı ki, hərbi xidmət adı altında kef çəkəcək".

"Azərbaycan kəşfiyyatı N.Paşinyanın oğlunu qansuz olaraq ölkəmizin ərazisinə daxil olduğu üçün həbs edə bilərmi" sualına cavab olaraq, politoloq bildirdi ki, qanuni və yaxud qanunsuz istənilən erməni Dağlıq Qarabağa və Azərbaycanın ətraf rayonlarına ayaq qoyursa, hökmən Azərbaycandan icazə almalıdır, yəni erməni və yaxud qeyri-erməni: "Beynəlxalq qanunlar, hüquqi qaydaları var. Dağlıq Qarabağ de-yure Azərbaycan Respublikasının ərazisidir. Azərbaycanın ərazi bütövlüyü BMT-nin, ATƏT-in sənədləri, qərarları ilə öz təsdiqini tapıb. Hər hansı səbəbdən, Azərbaycan hərbçisinin açdığı atəş nəticəsində Paşinyanın oğlu öldürülərsə və yaxud Azərbaycan kəşfiyyatının keçirdiyi xüsusi əməliyyatı nəticəsində tutularsa, bu halda, məsuliyyət N.Paşinyanın üzərində qalacaq.

M.Əhmədoğlu onu da bildirdi ki, beynəlxalq məhkəmələrdə ən vacib məsələ Azərbaycan tərəfdən Ermənistanın Dağlıq Qarabağa müdaxiləsini sübut edən arqumentlər və faktlardı: "Mən 10- 15 il qabağın faktlarını deyirəm. İndi ən yaxşı sübut və fakt əlimizdədir. N.Paşinyan Ermənistan vətəndaşıdır və baş naziridir. Oğlunun Ermənistan vətəndaşı olaraq Dağlıq Qarabağda xidmət keçməsi o deməkdir ki, Dağlıq Qarabağ müstəqil deyil, amma İrəvan tərəfindən idarə olunur. Bu fakt beynəlxalq hüquq müstəvisində Azərbaycanın mövqeyini xeyli yaxşılaşdırdı. Bu arzuolunandır ki, hüquqşünaslarımız, məhz N.Paşinyanın oğlunun Dağlıq Qarabağda xidmət etməsi və Dağlıq Qarabağın İrəvandan idarə edilməsi faktını beynəlxalq məhkəməyə versin. Bu, çox vacib məsələdir. N.Paşinyan bu hərəkətləri ilə nə qədər qammaz və savadsız olsa da, başa düşür ki, Prezident İlham Əliyevlə görüşməsi onun səviyyəsini uyğun deyil".

***Zakir Rəhimli***

# Xəyanətkarda milli təəssüb hissi olmur

## Bunun əyani sübutunu müxalif ünsürlərin simasızlığında görmək mümkündür

***Azərbaycanın son 15 il ərzində əldə etdiyi siyasi və iqtisadi uğurlar beynəlxalq aləmdə də yüksək dəyərləndirilir. Əgər Azərbaycan 15 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 24 dəfə artaraq, 44,3 milyard dollara yüksəlib. 2018-ci ilin altı ayının yekunlarına görə, Azərbaycanda ümumi daxili məhsul 1,3 faiz, kənd təsərrüfatı 7,6 faiz, qeyri-neft sektoru 2 faiz artıb.***

Qeyri-neft sənayesində 8,8 faiz artım qeydə alınıb. Bu, onu göstərir ki, qeyri-neft sektoruna qoyulan investisiyalar və sahibkarlara göstərilən dəstək öz bəhrəsini verir. Ölkədə 67 min yeni iş yeri açılıb ki, onlardan 53 mini daimi iş yeridir. Azərbaycan iqtisadiyyatına 6 milyard dollar sərmayə qoyulub. İnflyasiya isə cəmi 3 faizdir. İnflyasiyanın aşağı səviyyədə olması, onu göstərir ki, ölkəmizdə makroiqtisadi sabitlik tam təmin edilir. Maraqlı və diqqətçəkən məqam ondan ibarətdir ki, dağıdıcı müxalif ünsürlər Azərbaycanın uğurlarına qısqanclıqla yanaşırlar. Hətta xarici maraqlı dairələrlə iş birliyinə getməklə nailiyyətlərə kölgə salmağa cəhdlər göstərirlər. Bir qrup öyrədilmiş gəncin sosial şəbəkələr vasitəsi ilə söyüş metodundan istifadə etmələri, bəzi partiya sədrlərinin populist bəyanatlarla çıxış etmələri xarici maraqlı dairələrin çirkli pulları hesabına təşkil olunan təxribatlardandır.

### Müxalifət riyakar imicini möhkəmləndirir



Konstruktiv mövqeli əksər partiya sədrləri və funksionerləri sosial şəbəkələrdə dövlət və xalq əleyhinə qarayaxma kampaniyasının aparılmasını kəskin şəkildə pisləyirlər. Böyük Quruluş Partiyasının başqanı, millət vəkili Fazil Mustafa facebook profilində məsələyə münasibət bildirərkən Azərbaycan siyasətində söyüşün yolverilməz olduğunu, belə halların başında Ə.Kərimlinin dayandığını bildirir: "Satqın və riyakar olan Ə.Kərimli cəmiyyəti müxalifətdən iyrəndirir. Cəmiyyətdə fikir formalaşdırır ki, ondan başqa müxalifət yoxdur. Buna görə də, cəmiyyətin AXCP deyilən qurumdan heç bir gözləntisi yoxdur. Sosial şəbəkələrdə Kərimli tərəfdarları daha aktiv görünürlər. İstənilən insanı çox asanlıqla qaralaya bilirlər. 24 ildən artıqdır ki, bu proses gedir. Çoxsaylı saxta profillər arxasında gizlənən cəbhəçilər sosial şəbəkələri söyüş məkanına çeviriblər". AXCP-nin Nərimanov rayon təşkilatının keçmiş sədri Şirvan Qasımov bildirib ki, Ə.Kərimlinin işi sosial şəbəkələrdə saxta profillər açaraq, insanlara şər və böhtanla qara yaxmaq olub: "Facebook-a saxta profillər ənənəsini Ə.Kərimli gətirib. Partiya daxilində özünə monarxiya quran Ə.Kərimlinin artıq partiyanı siyasi bir mübarizə metodu deyil, şəxsi obyekti kimi istifadə etdiyini gördüm və buna səssiz qala bilmədim".

### Arif Hacılı müxalifətin üz qarasına çevrilib

Hazırkı məqamda müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin böyük əksəriyyəti siyasətə gəlir mənbəyi kimi baxır. Sədrlik kreslosunu da, məhz buna görə tərk etmək istəmir. AXCP və Müsavat kimi partiya sədrləri xarici qüvvələrlə iş birliyinə getməklə, xarici qüvvələrdən və ya fondlardan maliyyə yardımları alıblar. Ancaq siyasətdə uğur qazana bilməyiblər. Çünki müxalifət başbilənlərindən birinin, bir zaman dediyi kimi, "pul qoyub, pul götürmək olar, amma pul qoyub, siyasətdə uğur əldə etmək olmaz". Beləleri haqqında çoxsaylı faktlar-sübutlar göstərmək olar. AXCP sədr Ə.Kərimlinin, Müsavat başqanı A.Hacılının, Müsavatın keçmiş başqanı İ.Qəmbərin siyasi fəaliyyətlərinə nəzər yetirdikdə, hər şeyin məlum olduğunu görmək olar. Bu məxluqlar az qala yaşlarının yarısını siyasətə qurban versələr də, qazandıqları ancaq xalqın ittihamı, tənqid və iradları olub. Ağa qara demək, xalqın sevincinə, hakimiyyətin apardığı uğurlu siyasətə qərəzli yanaşmaq onların həyat tərzidir. Belələrinin yenilənməsinə ehtiyac var ki, bunun da reallaşmasına siyasi gəlir mənbəyi kimi baxan məxluqlar heç cür imkan verməyiblər. Yalnız rayon təşkilatlarının qətiyyətinə və prinsipiallığına ehtiyac var ki, yəqin ki, bu gözləntilər də yaxın vaxtlarda həyata keçəcək. Məhz bundan sonra köhnəlmiş, naftalin iyi verən partiya sədrləri tarixin arxivinə atılmasını reallaşdıracaq.

*İ.ƏLİYEV*

---



## "Siyasi ət"çilər üçün qəssab kötüyü

**RƏFİQƏ**

***Siyasət böyük işdir, amma bu işdə satılıb-satanla olanda, ortaya siyasət yox, "siyasi ət" çıxır. Həmin satan-satılan kiçik, türkün təbirincə desək, küçük adamlar virtual sallaqxanalardan özlərinin "siyasi ət"lərini camaata sırımağa çalışırlar. Belələrilə nə etmək lazımdır? Əlbəttə ki, baltalamaq! Və Əli Kərimli kimi, "siyasi ət" kötüklərini məntiq kötüyünün üstünə uzadıb, elə baltalamaq lazımdır ki, birdə səsləri çıxmasın.***

Ancaq Ə.Kərimli kimilər o qədər həyasız məxluqlardır ki, təki qrant alsınlar, min yerə şaqqalanmağa da razıdırlar. Çünki bu, o Ə.Kərimlidir ki, bütün fəaliyyətini, "facebook"da, kompüter qarşısında oturaraq, yersiz çıxışlar etməsi üzərində qurur. "Stəkanda fırtına" görüntüsünü yaratmağa cəhd etməyə çalışan Ə.Kərimli indi də başlayıb Tarif Şurasının çıxardığı qərarına balta vurmağa. Ancaq onu da deyək ki, bu, o Ə.Kərimlidir ki, yeri gəlsə ölkədə əldə olunan uğurlara kölgə salmaq üçün, hətta özünü auksiona çıxarmağa belə razıdır. Təki ölkədə siyasi sabitlik pozulsun. Ancaq bu ət kötüyü anlamır ki, xalq-iqtidar birliyi o qədər güclüdür ki, onun kimi iblislər heç nəyə nail ola bilməyib, bilməyəcək də.

Deyəndə ki, Ə.Kərimli iblisdir, deyir ki, yox, "insanam". Ancaq AXCP sədrinin xəyanət xronologiyasına nəzər salsaq, onun kimliyi ilə bağlı suallara açıq şəkildə cavab tapmaq olar. Bu yerdə ASDP sədri Araz Əlizadənin dediklərini bir daha xatırlatmaq yerinə düşər: "AXCP tarixində Ə.Kərimli qədər pozuculuq fəaliyyəti, Ə.Kərimli qədər Elçibəy əleyhinə gedən, bu məsələni təşkilatlanmış, mobil şəkildə təşkil edib, sonunda xəyanət yolu tutan ikinci şeytan cildinə girən iblis olmayıb. Bu, faktdır, tarixdir. Bu, mənim şəxsi mövqeyim deyil. Bu, Ə.Kərimlinin fəaliyyətinin nəticəsi və adıdır".

Bax, budur Ə.Kərimlinin iblis xisləti və bu iblis xisləti AXCP sədrinin Tarif Şurası ilə bağlı planı. Ancaq çifayda ki, bu plan da baş tutmayacaq. Çünki satqınçılıq və xəyanətin ömrü az olur. Məgər bu reallıq dəfələrlə təsdiqini tapmayıbmı?

---

## Gömrükçülər narkotik vasitə aşkarlayıb




Gömrükçülər narkotik vasitə aşkarlayıb. Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Biləsuvar Gömrük İdarəsinin "Qoşa Təpə" gömrük postunda İran İslam Respublikasından piyada gələn Azərbaycan vətəndaşı saxlanılıb və üzərində şəxsi yoxlama aparılıb.

Yoxlama zamanı zərurət yarandığı üçün onun daxili orqanları həkim müayinəsindən keçirilib. Nəticədə, saxlanılan şəxsin düz bağırsağında narkotik vasitələr - 1 bükümdə xalis çəkisi 0,5 qram olan heroin, 1 bükümdə isə xalis çəkisi 4,368 qram olan qurudulmuş marixuana aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

---

## Avropada ilk dəfə aeroportda sifətin tanınması sistemi tətbiq olunub



Oslo aeroportunda Fransanın "IDEMIA" şirkəti tərəfindən hazırlanmış "MorphoFace" adlı sifətin tanınması sistemi tətbiq edilib. Sözügedən sistem avtomatlaşdırılmış sərhəd nəzarət-buraxılış məntəqələri avadanlığının bir hissəsi olub. AZƏRTAC "ixbt.com" saytına istinadla xəbər verir ki, bundan əvvəl "MorphoFace" sistemi Yeni Zelandiya və Sinqapurun Çanqi aeroportunun yeni "T4" terminalında uğurla tətbiq edilib. Sistem həmin aeroportlarda reysləri avtomatik qeydə almağa xidmət edir. Avropada ilk dəfə Oslo aeroportu "MorphoFace" adlı sifətin tanınması sistemi ilə təchiz edilib.

Yeni sistem Oslo aeroportunda sərhəd nəzarət məntəqələrinin buraxılış qabiliyyətini artıraraq köhnə infrastrukturu əvəz edəcək. "IDEMIA" şirkətinin mütəxəssisləri tərəfindən hazırlanmış texnologiya hərəkətdə olan sifətin təsvirini ələ keçirərək onu tanıyır.

---

## İran ABŞ ilə danışıqlara qayıtmaq şərtini açıqlayıb



İki ölkə arasında dialoqun bərpası üçün ABŞ nüvə razılaşmasına qayıtmalıdır. APA-nın xəbərinə görə, bunun İran prezidenti Həsən Ruhaninin müşaviri Həmid Abutalebi özünün "Twitter"ində yazıb. "İranın hüquqlarına hörmət, düşmənçiliyin aradan qaldırılması, nüvə razılaşmasının icrasının bərpası. ABŞ və İran arasında danışıqlara yol açmaq üçün atılacaq addımlar bunlardır", H.Abutalebi yazıb.

Bundan əvvəl ABŞ prezidenti Donald Tramp iranlı həmkarı Həsən Ruhani ilə ilkin şərt olmadan görüşməyə hazır olduğunu bildirib. Qeyd edək ki, mayın 8-də D. Tramp ölkəsinin İranla nüvə proqramına dair imzalanmış razılaşmadan çıxdığını bəyan edib.

---

## Hindistanda musson yağışları 569 can alıb

Hindistanda musson yağışları bir ayda 569 can alıb. AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, Hindistanda musson yağışlarının səbəb olduğu sellər və torpaq sürüşmələri səbəbindən iyulun əvvəlindən bəri 569 nəfər həyatını itirib.

Hindistan Daxili İşlər Nazirliyindən verilən açıqlamada musson yağışlarının ölkənin bütün ərazisini əhatə etdiyi bildirilir. Meteorologiya Qurumu da yağışların qarşıdakı günlərdə davam edəcəyini bildirərək, müvafiq tədbirlərin görülməsi istiqamətində çağırış edib.

## Şimali Kiprdə həbs olunan FETÖ terror təşkilatının 50 üzvü Türkiyəyə təhvil verilib

Şimali Kiprdən qaçaq yolla Yunanıstanın Rodos adasına keçmək istəyərkən saxlanılan FETÖ terror təşkilatının 50 üzvü Türkiyənin təhlükəsizlik orqanlarına təhvil verilib. AZƏRTAC rəsmi informasiya mənbələrinə istinadla xəbər verir ki, həbs olunanlar arasında fərari, tələbə və yüksək rütbəli hərbçilər də var. Onlar polis tərəfindən iyulun 28-də Şimali Kiprin su ərazisindən qanunsuz yolla çıxmaq istərkən həbs olunublar.

# Qərbdə uşaq hüquqlarının vəziyyətinə dair

***Qərbdə uşaq hüquqları acınacaqlı vəziyyətdədir. Bu barədə Maykl Parenti yazır: “Uşaqlar federal və ştat hakimiyyət orqanları tərəfindən hüquqları qorunmayan və sıxışdırılan daha bir sosial qrupdur. Ailədaxili zorakılıq, nəzarətsizlik və aclıq hər il 2000 uşağın dünyasını dəyişməsinə səbəb olur. 140 000-dən çox uşaq ciddi zədə alır və minlərlə uşaq ömürlük şikəst olur. Uşaqların ölümünə səbəb (4 yaşına kimi) onlarla pis rəftardır. 1999-cu ildə ABŞ-da uşaqlarla 1054 000 pis rəftar qeydə alınmışdı. Bu göstərici 1985-ci illə müqayisədə 34% çoxdur.***

Bəlkə də həqiqətdə bu rəqəm daha artıqdır. Çünki çox zaman uşaqların ölümünə təsadüfi hadisə kimi baxırlar. Məlumat verildiyi kimi, hər il 150 000 uşaq yoxa çıxır və onların 50 000-i heç vaxt tapılmır. Təqribən 45 000-50 000-ə kimi qadın və uşaq aldadılaraq ABŞ-a gətirilir, burada fahişəliyə, fəhlə və qulluqçu kimi işləməyə məcbur edilirlər. 2000-ci ildə Konqres ailədaxili zorakılığa qarşı mübarizədə ştat hakimiyyətinə, bələdiyyələrə kömək və uşaq, qadın ticarəti haqqında qanunları sərtləşdirmək məqsədilə qanun qəbul etdi.

KİV-in orta məktəblərdəki atışmalar barədə həyəcanla yaydığı xəbərlər sayəsində çoxları unudur ki, çox vaxt belə hadisələrdə həbs olunan yeniyetmələr günahkar deyil, məhz zərər çəkənlərdir. Statistik məlumatlara görə, uşaqlar məktəbdə daha çox təhlükəsizdirlər, nəinki evdə. 1997-ci ildə gənclər arasındakı cinayətlərin sayı 1980-ci illə müqayisədə azalmışdı. Bu azalma 1998-99-cu illərə qədər davam etmişdi. Amma federal və ştat qanunvericiləri yeniyetmə cinayətkarlara qarşı sərt cəzalandırıcı tədbirlər görməkdə davam edirlər. Onlarla böyüklər kimi davranırlar, o cümlədən, 12 yaşı olanlarla da. Ən qəribə hadisə 1998-ci ildə Florida ştatının Tallahasi şəhərində baş vermişdi. Şakita Doman məktəbin uşaq meydançasında mübahisə etdiyinə görə həbs olunmuşdu. Onun cəmi 5 yaşı var idi. Həbs olunanlara reabilitasiya imkanı verilmədən ömürlük həbs cəzası oxunurdu. Cinayətkarlara qarşı sərt münasibət göstərən qanunvericilər yeni qanun layihəsi hazırladılar. 13 yaşlı yeniyetmələr ittiham olunana kimi, böyüklərə eyni kameralarda qalırlar. Milyondan çox uşaq yetimxanada, uşaq islah müəssisələrində, böyüklər üçün olan həbsxanalardadır. Tutulanların çoxu ya yüngül qanun pozuntusuna yol verənlər, ya da qanunu, ümumiyyətlə, pozmayanlardır. Onlar həbsxanada məhkəmə araşdırması aparılmadan saxlanılırlar. Əksəriyyəti yoxsulluq içində böyümüş, bu və ya digər etnik azlığa mənsub yeniyetmələrdir. Uşaq islah müəssisələrində onlar, mütəmadi olaraq döyülməyə, seksual zorakılığa, təhqirə, bütün ətraf aləmdən təcridə, sinirə güclü təsir göstərən dərman preparatlarını zorla qəbul etməyə, psixocərrahi əməliyyatlara məruz qalırlar.

1990-1995-ci illər ərzində “Ritalin” dərmanının uşaqlar arasında qəbulu 250% artmışdı. Bu narkotik maddənin təhlükəsizliyi və təsiri barədə məlumat azdır. Həmin dərmanı həkimin təyinatı olmadan da almaq mümkündür. Məsələn, əgər uşaq bir yerdə qərar tuta bilmirsə və diqqətsizdirsə, onda bu dərmanı qəbul etməlidir. Həmin dərmandan təcrübə kimi islahedici müəssisələrdə, həbsxana və psixomüalicə müəssisələrində uşaqlar daha çox istifadə edirlər.

Uşaqlarının davranışları xoşlarına gəlməyən valideynlər onları qeyri-məhdud müddətə psixiatriya müalicəxanasına yerləşdirə bilərlər. ABŞ-ın milyonlarla yetkinlik yaşını keçmiş vətəndaşları ömürlərinin bir hissəsini ruhi xəstəxanalarda keçiriblər. Ora düşmək çoxunun düşündüyündən daha asandır, nəinki ordan çıxmaq. Bəzi insanlar bu müəssisələrdə illərlə dəhşətli şəraitdə çürüməli olurlar. Onların hüquqi dəstək almaq imkanları olmur. Belə müəssisələrdə yüksək ölüm halları müşahidə olunur. Dövlət tərəfindən müalicə dəstəyi, tibbi sığortası olmayan xəstələri xəstəxanalardan çıxarırlar. Baxmayaraq ki, onların, həqiqətən də, tibbi yardıma ehtiyacları var. Belə təcrübə “atılma” adlanır.”

M.Parentinin fikrincə, aparılan tədqiqatlar göstərir ki, hər dörd qadından və hər altı kişidən biri uşaq yaşlarında yaşlılar və qohumları tərəfindən seksual zorakılığa və digər qəsdə məruz qalıblar. Belə cinayət hadisəsi onlarda bütün ömrü boyu dərin emosional iz buraxır. Azyaşlıları zorlamaqda ittiham olunanların çox az hissəsi məhkəmə tərəfindən günahkar bilinir. Məhkəmə belələrini daha çox şərti cəza ilə azad edir və ya yüngül cəza verir.

Əhalinin rifahı barədə bütün deyilənlərə baxmayaraq, afroamerikalılar və digər etnik qrupların nümayəndələri hələ də iş tapmaqda, ev kirayələməkdə, tibbi xidmətdə, təhsil almaqda çətinlik çəkir, hətta qanun keşikçilərinin qeyri-bərabər münasibətinə məruz qalırlar. Cinayətin ağır formaları ən çox yoxsullar yaşayan rayonlarda baş verir. Buna görə də, cinayətkarların əksəriyyəti afroamerikalılar, latın amerikalılar və yoxsul insanlardır. Qanunvericiliyin sinfi və irqi xarakteri hüquq-mühafizə orqanlarının kimi həbsə göndərmək məsələsində ortaya çıxır. Yeniyetmələrin işləri ilə məşğul olan ədliyyə orqanlarının məmurları bildirirlər ki, əgər təminatlı ailənin yeniyetmə uşağı kiçik qanun pozuntusuna yol veribsə, onu valideynlərinə təhvil verir və bir də belə halın təkrarlanmaması barədə xəbərdarlıq edirlər. Lakin belə hal daha aztəminatlı ailənin uşağı ilə baş verərsə, uşağı həbs edib məhkəməyə göndərirlər. Afroamerikalı yeniyetmələr öz ağdərili həmyaşıdlarından fərqli olaraq, daha çox təcrid olunmuş həbsxanalarda saxlanılır və məhkəməyə verilir, kiçik bir səhvə görə cəza alırlar. Onlar eyni qanun pozuntusuna yol vermiş ağdərililərdən daha çox həbs cəzası alırlar.

Narkotik vasitələrə gəlincə, ağdərililər afroamerikalılara nisbətən ondan 5 dəfə çox istifadə edirlər. Amma ölkədə narkotiklərə görə həbs olunanların 62%-ni afroamerikalılar təşkil edir. Bəzi ştatlarda bu göstərici 90%-ə çatır. Qaradərili məhbusların 60%-i zorakılıqla müşayiət olunmayan cinayətlərə görə daha çox cəza alırlar. Bir neçə dairə məhkəməsi narkotika ilə bağlı işə baxmaqdan imtina etdi. Çünki ittihamçılar istintaq materiallarını verməkdən boyun qaçırdılar. Həmin materiallar sübut edirdi ki, onlara irqi münasibət bəsləyiblər.

Halbuki məhz Fransa İnqilabı və Hüquqlar Bəyannaməsində göstərilir:

1. İnsanlar azad və bərabər hüquqlarla doğulur və yaşayırlar. İctimai fərqlər yalnız ümumi mənafe ilə bağlı fikirlərə əsaslana bilir.

2. Hər hansı siyasi ittifaqın məqsədi insanın təbii və ayrılmaz hüquqlarının təmin edilməsindən ibarətdir. Bunlara azadlıq, mülkiyyət, təhlükəsizlik və zülmə müqavimət hüquqları daxildir.

3. Xalq mahiyyətcə suveren hakimiyyətin mənbəyini təşkil edir. Fərdlərin heç bir birliyi, heç bir fərd xalqdan gəlməyən hakimiyyətə malik ola bilməz.

4. Azadlıq başqasına ziyan vurmayan hər şeyi etmək imkanından ibarətdir: beləliklə, hər bir insanın “təbii hüquqlarının həyata keçirilməsi yalnız cəmiyyətin digər üzvlərinin uyğun hüquqlardan istifadəsini təmin edən hədlərlə məhdudlaşdırılır. Bu hədlər yalnız qanunla müəyyənləşdirilə bilər.

5. Qanun yalnız cəmiyyətə zərərli olan hərəkətləri qadağan etmək hüququna malikdir. Qanunla qadağan olunmayan hər şeyə icazə verilir və qanunla nəzərdə tutulmayanları etməyə heç kəsi məcbur etmək olmaz.

6. Qanun ümumi iradənin ifadəsidir. Bütün vətəndaşlar şəxsən, yaxud nümayəndələri vasitəsilə qanunun yaradılmasında iştirak etmək hüququna malikdir. Qanun hamı üçün olmalıdır, o qoruyur, yaxud cəzalandırır. Bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər və ona görə də, qabiliyyətlərinə uyğun olaraq, şəxsi keyfiyyətlərini və istedadlarını şərtləndirən fərqlərdən başqa hər hansı fərqdən asılı olmayaraq, bütün ictimai mənsəbləri, yerləri və yaxud vəzifələri tutmaq hüququna malikdirlər.

7. Heç kəs qanunda nəzərdə tutulandan və onun nəzərdə tutduğu prosedurlardan irəli gələnlərdən başqa, heç bir halda, ittiham edilə, saxlanıla, yaxud həbs edilə bilməz. Özbaşınalıqla sorğu-suala tutan, əmr verən, onu icra və yaxud icraya məcbur edən hər kəs cəza almalıdır; qanunun hökmü ilə çağırılmış, yaxud saxlanılmış hər bir vətəndaş ona sözsüz tabe olmalıdır; o, müqavimət göstərdiyi halda məsuliyyət daşıyır.

8. Qanun yalnız ciddi və şəksiz zəruri cəzalar müəyyən etməlidir; heç kəs qanun pozuntusundan əvvəl qəbul olunmamış və xalqa elan edilməmiş, müvafiq qaydada tətbiq edilməmiş qanunla cəzalandırıla bilməz.

9. Hər bir kəs günahı elan edilənə qədər günahsız sayılır; şəxsin həbsinin zəruri olduğu hallarda hər hansı artıq lüzumsuz ciddi tədbirlərin qarşısı qanunla qəti şəkildə alınmalıdır.

10. Heç kəs öz baxışlarına, hətta dini baxışlarına görə sıxışdırılmamalıdır, bir şərtlə ki, onların ifadə olunması qanunla müəyyənləşdirilmiş ictimai asayişi pozmasın.

11. Fikir və mövqeyin azad ifadəsi insanın ən qiymətli hüquqlarından biridir; hər bir vətəndaş yalnız sui-istifadə hallarında qanun qarşısında cavab verməklə öz fikrini azad deyə, yaza və dərc etdirə bilər.

12. İnsan və vətəndaş hüquqlarının təminatı üçün dövlətin gücü vacibdir; bu güc ixtiyar sahiblərinin şəxsi maraqları üçün deyil, hamının mənafeyinə xidmət etmək üçün yaradılır.

13. Dövlət qüvvələrinin saxlanılması və idarə edilməsi xərcləri üçün ümumi rüsumların yığılması zəruridir; onlar bütün vətəndaşlar arasında imkanlarına uyğun olaraq bərabər bölüşdürülməlidir.

“Jurnalistlər Sülh və İnkişaf Uğrunda” İctimai Birliyi, ölkədə uşaq hüquqları ilə bağlı ciddi maarifləndirmə kampaniyasına ehtiyac olduğunu elan edib.

Bu barədə “Avropa.info”-ya açıqlamasında media qurumunun rəhbəri Mətləb Salahov məlumat verib. Qurum rəhbəri bildirib ki, son vaxtlar cəmiyyətdə uşaq hüquqları ilə bağlı yaranan anlaşmazlıq, xüsusi ilə bu sahədə baş alıb gedən qeyri-müəyyənlik uşaq hüquqlarının qorunması sahəsində qeyri-peşəkarlığa və xaosa yol açıb. “Biz hesab edirik ki, ölkə mediası uşaq hüquqları ilə bağlı cəmiyyətimizin maarifləndirmə kampaniyasına fəal qoşulmalıdır. Çünki cəmiyyətin maarifləndirilməsi işində KİV-in rolu olduqca böyükdür. Əgər, KİV bu sahədə maarifləndirmə kampaniyasına fəal şəkildə qoşulmasa, o zaman bu sahədəki qeyri-peşəkarların qarşısı daha da alınmaz hala gələcək. Xüsusi ilə, bir sıra telekanallarda uşaq hüquqlarının ucuz şouya çevrilməsi olduqca narahatedici haldır. Bundan başqa, ən böyük təhlükə odur ki, gələcək nəsillərin taleyi bu sahədə olan məlumatsızlıq və informasiyasızlıq üzündən böyük təhlükəyə düşəcək,”-deyə M.Salahov bildirib.

Könül Kamil qızı yazır: “Uşaq hüquqlarının qorunması bu gün dövrün ən aktiv məsələlərindən biridir. Avropa Şurasına üzv olan dövlətlər çərçivəsində mühüm işlərin görülməsinə, tədbirlərin həyata keçirilməsinə baxmayaraq, fakt odur ki, bu gün Avropada uşaqlar, hətta məktəblərdə zorakılığın qurbanına çevrilir”. Bunu Avropa Şurası baş katibinin Azərbaycandakı xüsusi nümayəndəsi Konstantin Yerokostopulos deyib. O bildirib ki, etnik mənsubiyyətindən asılı olmayaraq, onlara qarşı zorakılıqlar geniş yayılıb. Cinsi zorakılığın qarşısının alınması istiqamətində Avropa Şurası tərəfindən tədbirlərin görüldüyünü deyən beynəlxalq təşkilatın nümayəndəsi qeyd edib ki, Avropa Şurası da BMT-nin uşaq hüquqları ilə bağlı Konvensiyasına uyğun olan milli strategiya hazırlamağı düşünür.

“Amma hər bir ölkədə strategiya elə qurulmalıdır ki, uşaqlara yardım etmək mümkün olsun. Avropa Şurası Nazirlər Kabineti 2012-2015-ci illəri əhatə edən strategiya qəbul edib və buraya Azərbaycan da daxil olmaqla, 42 ölkə qoşulub. Təbii ki, Azərbaycanın da bu strategiyaya qoşulması müsbət addımdır və ölkələr arasındakı müəyyən problemlərin də həllinə öz töhfələrini verəcək”, -deyə, o əlavə edib.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

səs
Son səhifə 1 avqust

## Alimlər: Son 30 ildə kral pinqvinlərinin sayı kəskin şəkildə azalıb

Alimlər son 30 ildə kral pinqvinlərinin sayında kəskin azalma olduğunu bildiriblər. “Anadolu” agentliyi xəbər verir ki, “Antarctic Science” jurnalında dərc olunan araşdırmanın nəticələrinə görə, Hind okeanının cənubunda Fransaya aid “Cochons” adasında yaşayan dünyanın ən böyük kral pinqvinlərinin sayı 1980-ci illərdən indiyə kimi 88 faiz azalıb. Adada 2015-2017-ci illərdə havadan və peykdən aparılan monitorinqlərdə 60 min pinqvin cütlüyünün mövcudluğu aşkar edilib. 1980-ci illərdə keçirilən başqa bir tədqiqatda isə təxminən 500 min pinqvin cütlüyünə rast gəlindiyi bildirilib.

## Amerikalı bioloqlar qripə qarşı “universal” nanovaksin yaradıblar

ABŞ-ın molekulyar biologiya mütəxəssisləri qripin nadir və geniş yayılmış ştamlarından qoruyan nanovaksin yaradıb və onun təsirini siçanlar üzərində yoxlayıblar. AZƏRTAC RİA Novosti agentliyinə istinadla xəbər verir ki, alimlərin tədqiqatı barədə məlumat PNAS jurnalında yer alıb.

“Bizim yeni vaksin həm infeksiyaya hüceyrə reaksiyasını təmin edən T-hüceyrələrinə, həm də antitel hasil edən B-hüceyrələrinə təsir göstərir. Bundan başqa, onun işinin səmərəliliyi üzərində mikroiynələr dəsti olan məlhəm hesabına daha da yaxşılaşdırılıb. Bütün bunlar qripə qarşı ucuz universal vaksinin yaradılmasına yol açır”, - deyə Corciya ştatı universitetindən (Atlanta şəhəri, ABŞ) Bao-Çjun Van deyib.

Bu ilin əvvəlində Van və onun həmkarları insanları və heyvanları A qripinin, demək olar, bütün ştamlarından qoruyan universal nanovaksinin ilk prototipini yaradıblar. Qeyd edək ki, bəşər tarixində bu xəstəliyin ən ciddi epidemiyaları A virusu ilə bağlıdır.

Bu prototipin uğurlu sınağı alimləri belə bir fikir üzərində düşünməyə sövq edib: bunu qripin bütün növlərinə qarşı mübarizə aparmağa yönəltmək və onun təsirini gücləndirmək mümkündürmü? Bu ideyanı rəhbər tutan alimlər nanohissəciklərin strukturunda dəyişiklik edərək yağ komponentlərini virusun digər zülal komponentlərinə dəyişiblər.

Siçanlar üstündə aparılan təcrübə göstərib ki, vaksinin yeni versiyası gəmiriciləri virusların həm epidemik versiyasına, həm də daha nadir növlərinə aid qrip ştamlarının ölümcül dozalarından qoruyub. Növbəti eksperimentlər və bu nanohissəciklərə virusun digər elementlərinin əlavə edilməsi, Vanın sözlərinə görə, insanı təkcə nadir və A növ viruslardan deyil, qripin bütün növlərindən qorumaq iqtidarında olan təsirli universal vaksin yaratmağa imkan verəcək.

## Gigiyenik pomada və balzamdan istifadə edirsinizsə, mütləq oxuyun!

İstehlakçıların maraqlarını müdafiə edən Que Choisir adlı tanınmış fransız təşkilat gigiyenik pomadaları və balzamların keyfiyyətini araşdıran tətqiqat sifariş edib. Saglamolun.az xarici KİV-lərə istinadla xəbər verir ki, nəticə ürəkaçan olmayıb. Nümunələrinin 50%-ndə zəhərli maddələr aşkar olunub. Araşdırma zamanı böyük kosmetik brendlərin məhsulları da yoxlanılıb. Lakin bu məhsulların tərkibində də ziyanlı maddələr aşkar olunub. Nümunələrdə kanserogen maddələr, limfa düyünləri və qaraciyərdə iltihaba səbəb olan yağlar tapılıb. Nəticədə mütəxəssislər gigiyenik pomada və dodaq üçün balzamları potensial kanserogen (xərçəng əmələ gətirən maddə) kimi tanıyıb. Mütəxəssislər gigiyenik pomada və balzamların əvəzinə təbii vasitələrdən (zeytun yağı, badam yağı, ərik yağı adi vazelin) istifadə etməyi tövsiyə edirlər.

Bundan əvvəl keçirilmiş araşdırma göstərib ki, saç boyaları da kanserogen xüsusiyyətlərə malikdir və süd vəzi xərçənginin riskini artırır. Sübut olunub ki, saçlarını ildə 6 dəfə boyayan qadınlarda süd vəzi xərçənginin riski 14% artır. Saç boyalarının tərkibində olan kanserogen maddələr baş dərisindən orqanizmə daxil olaraq orqanizmdə toplanır və bu da xərçən xəstəliklərinin riskini xeyli artırır. Mütəxəssislər ildə 2 dəfədən artıq saçları boyamağı tövsiyə etmir.

## Yerri Mina “Barselona”nı “Mançester Yunayted”ə dəyişir




“Barselona”nın müdafiəçisi Yerri Mina komandadan ayrılmaq üzrədir. Qol.az-ın “Sport.es” nəşrinə istinadən yaydığı xəbərə görə, kolumbiyalı futbolçu şəxsi “İnstagram” hesabında kataloniyalıların oyunçusu olması ilə bağlı məlumatları silib. Əvəzində isə “Mançester Yunayted”in rəsmi səhifəsini izləməyə başlayan 23 yaşlı yarımmüdafiəçi bununla Kataloniya klubundan ayrılacağına işarə vurub.

## Gənclər arasında Avropa çempionatında Yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar




Romada güləş üzrə gənclər arasında Avropa çempionatı davam edir. Azərbaycan Güləş Federasiyasından AZƏRTAC-a bildiriblər ki, çempionatda güləşin hər üç növü üzrə yığma komandalarımızın üzvləri qatılıblar.

Yarışın ikinci günündə 60, 67, 72, 82 və 97 kiloqram çəki dərəcələrində yunan-Roma güləşçiləri mübarizəyə qoşulublar. Məhəmmədəli Həsənov (67 kq) Çexiya və Moldovadan, Ülvi Qənizadə (72 kq) isə Ukrayna, Litva və Ermənistandan olan rəqiblərini üstələyərək yarımfinala vəsiqə qazanıblar. Yarımfinalda hər iki güləşçimizin rəqibi Gürcüstan idmançıları olacaq. Məmmədəli Coni Xetsuriani ilə, Ülvi isə Nikoloz Tçikaidzeyə qarşı mübarizə aparacaq. Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakim Elman İsmayılov təmsil edir.

## “Liverpul” Sadio Mane ilə müqaviləni uzadacaq



İngiltərənin “Liverpul” klubunun rəhbərliyi seneqallı hücumçusu Sadio Mane ilə müqavilənin müddətini uzatmaq niyyətindədir. Belə ki, “Liverpul” 26 yaşlı futbolçunun illik məvacibini artırmaqla onunla yeni müqavilə imzalamağı planlaşdırır. Sadio Mane ilə hazırkı müqavilə 2021-ci ilədək qüvvədədir. “Liverpul” rəhbərliyi klubun aparıcı oyunçularından sayılan braziliyalı Roberto Firmino və misirli Məhəmmed Salah ilə müqavilələri artıq yeniləyib. Hər iki futbolçu ilə 2023-cü ilədək müqavilə imzalanıb. S.Mane 2016-cı ildə “Sauthemton” klubundan 40 milyon avroya transfer olunub. Seneqallı hücumçu “Liverpul”un heyətində meydana çıxdığı 73 matçda 33 dəfə rəqib qapılarına yol tapıb.

## “Borussiya” Belçika millisinin üzvünü transfer edəcək



Belçika millisinin üzvü Aksel Vitsel karyerasını yenidən Avropada davam etdirəcək. SİA-nın məlumatına görə, 29 yaşlı futbolçu Dortmund “Borussiya”yasında çıxış edəcək. Tibbi müayinədən uğurla keçən yarımmüdafiəçi ilə yaxın vaxtlarda rəsmi müqavilə bağlanacaq. “Borussiya”nın bu keçidə görə Çinin “Tyançzin Çyuançzyan” klubuna 20 milyon avro ödəyəcəyi bildirilir. Qeyd edək ki, Vitsel 2017-ci ilin yayından Çində çıxış edir.

## “Milan”ın hücumçusu “Qalatasaray”a keçir?

Ötən mövsüm “Milan”da zəif təsir bağışlayan Andre Silva “Qalatasaray”a keçməyə yaxındır. Qol.az-ın İtaliya mətbuatına istinadən yaydığı xəbərə görə, portuqaliyalı hücumçu İstanbul klubunda icarə əsasında çıxış edəcək. “Cim-bom”un Silva üçün “Milan”a heç bir məbləğ ödəməyəcəyi bildirilir. Andre Silvanın komandadan gedişi “Yuventus”un hücumçusu Qonzalo İquainin “Milan”a gəlişi ilə əlaqələndirilir. Qeyd edək ki, Silva 2017-ci ildə “Portu”dan “Milan”a keçib. O, “rassonyerlər”in heyətində 24 oyun keçirib və 2 qol vurub.

Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500